QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 109 (5829) **20 iyun** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Xalqa qayğının bariz təcəssümü

## *Dövlət büdcəsi vətəndaşların rifahı naminə xərclənir*



Səh 2

3

"Sivilizasiyalar arasında dialoq dövlətin yürütdüyü ali siyasi kursdur"



3

Ramiz Mehdiyev təhlükəsizlik məsələləri üzrə beynəlxalq görüşdə iştirak edib



5

Əli Əhmədov: "Azərbaycan vətəndaşını daha yüksək rifah gözləyir"



# Xalqa qayğının bariz təcəssümü

## Dövlət büdcəsi vətəndaşların rifahı naminə xərclənir



***Görülən hər bir iş, atılan hər bir addım, Azərbaycan dövlətinin uğurlu inkişafı və xalqın rifahının yaxşılaşmasına xidmət edir. Bu gün Azərbaycanın daha güclü olması üçün ardıcıl uğurlu siyasəti davam etdirmək, son 16 ildə görülən işlərin uğurlu nəticələrini bir daha təsdiqləyir.***

Bu baxımdan, iyunun 18-də imzalanan 17 Sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq edir və bu istiqamətdə, cari il ərzində, artıq ikinci böyük sosial paketin reallaşdırıldığını göstərir.

Bu faktoru da bir daha vurğulamaq lazımdır ki, dövlətimizin başçısı tərəfindən aparılan sosial-iqtisadi siyasətin qayəsində Azərbaycan vətəndaşının, onun sosial təminatının və rifahının dayandığını özündə növbəti dəfə bariz şəkildə ehtiva edən bu sərəncamlar, ümumilikdə, 2 milyondan çox insanı əhatə etməklə, həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan şəxslərin maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

### Reallığı əks etdirən imzalanmış sərəncamlar

Belə ki, həmin sərəncamlara əsasən, minimum aylıq əməkhaqqının 180 manatdan 250 manata çatdırılması, dövlət qulluqçularının aylıq vəzifə maaşlarının 50 faiz, hərbi və hüquq-mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqlarının 40 faiz, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının orta hesabla 20 faiz, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşlarının orta hesabla 40 faiz artırılması haqqında bir sıra sərəncamlar imzalandı. Bu isə, Azərbaycanda sosial sahədə atılan inqilabi addımların növbəti mərhələsinin başlandığına işarə idi.

Prezident İlham Əliyevin verdiyi sərəncamlar və qərarlar, bir daha təsdiq olundu ki, əhalinin sosial rifahının gücləndirilməsi, ölkədə həyata keçirilən siyasətin əsas istiqamətlərindən biridir. Prezidentin imzaladığı sərəncamlar göstərdi ki, islahatlar kompleks xarakter daşıyır və atılan hər bir addımın mərkəzində Azərbaycan vətəndaşının etibarlı sosial təminatı dayanır. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, Prezident İlham Əliyevin uğurlu və uzaqgörən siyasəti nəticəsində, Azərbaycan qarşısında dayanan hədəflərə və müəyyən etdiyi məqsədlərə doğru inamla irəliləyir. Təkcə bir faktı qeyd edək ki, ötən dövr ərzində, Prezident İlham Əliyevin sosial islahatlar paketi 3 milyon vətəndaşın rifahında əhəmiyyətli rol oynayan mühüm addımların atılmasına imkan verib. Bu, bir daha sübut edir ki, Prezident İlham Əliyevin fəaliyyətində əhalinin sosial rifahının əsas yer tutur.

### Qısqanclıqla qarşılanan həqiqətlər...

Göründüyü kimi, məhz ölkə Prezidentinin düşünülmüş siyasətinin nəticəsidir ki, hətta böhranlı illərdə Azərbaycan sürətlə inkişaf edə bilir. Belə ki, iqtisadi potensialın gücləndirilməsi, müasir sosial infrastrukturun yaradılması, minlərlə istehsal müəssisəsinin, nəhəng zavod və fabriklərin, yeni iş yerlərinin açılması, əmək haqlarının, pensiyaların və müavinətlərin ardıcıl şəkildə artırılması əhalinin sosial durumunun əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olub. Amma buna baxmayaraq, bəzi daxili siyasi qruplar və xarici dairələr, onlara qulluq edən mətbuat əsassız, qərəzli şəkildə həyata keçirilən siyasəti ləkələməyə və onun əhəmiyyətini azaltmağa çalışır. Bu mənada, bir sıra müxalifət funksionerləri və mətbuatı dövlət başçısının bu uğurlu islahatlarını öz maraqlarından irəli gələn siyasi manipulyasiya obyektinə çevirmək üçün müəyyən cəhdlər göstərirlər. Əgər ölkəmizdə son 16 ildə əmək haqlarının mütəmadi qaydada yüksəldilməsini nəzərə alsaq, bu iddianın düzgün olmadığını görmüş oluruq. Bu baxımdan, elementar bir müqayisəni vermək istərdim. Əgər Azərbaycanda 2013-cü ilin dövlət büdcəsi 25 milyard dollar təşkil edirdisə, Ermənistanın dövlət büdcəsi isə, 2,5 milyard dollar idi. Bu, o deməkdir ki, Azərbaycanın dövlət büdcəsi Ermənistandan 10 dəfə çoxdur. Eyni zamanda, Gürcüstanın dövlət büdcəsi 4,8 milyard dollardır. Bu da, ondan xəbər verir ki, Azərbaycanın dövlət büdcəsi Gürcüstandan 5 dəfə çoxdur.

Bir sözlə, Azərbaycan dövlətinin sosial inkişaf sahəsində əldə etdiyi uğurlu nəticələr, deməyə əsas verir ki, Azərbaycan uğurlu inkişafdadır. Ən başlıcası isə, qazanılan iqtisadi uğurlar sosial siyasətin genişlənməsinə yeni imkanlar yaradır. Çox qürurverici ənənədir ki, həyata keçirilən sosial siyasət tamamilə Azərbaycan vətəndaşının həyatını müsbət istiqamətdə dəyişdirməyə, insanların özlərini güvənli hiss etməyə sövq edir və qətiyyətlə bildirmək olar Prezident İlham Əliyevin yürütdüyü kurs, nəinki böyük hərflərlə qeyd ediləcək İSLAHAT-dır, hətta islahata inqilabi yanaşma nümunəsidir.

Beləliklə, bütün bunlar o deməkdir ki, dövlət başçımız növbəti illərdə də Azərbaycan Prezidenti kimi Ümummilli Lider Heydər Əliyev tərəfindən başlanan, ölkəmizi böyük perspektivlərə doğru aparan uğurlu inkişaf strategiyasını davam etdirəcək və xalqımızın rifah halı daim yüksələcək.

***RƏFİQƏ KAMALQIZI***

## İlham Əliyev: "Azərbaycan müxtəlif mədəniyyətlərin ahəngdar münasibətlərinə və humanitar əməkdaşlıq ideyalarına hərtərəfli dəstək verir"



***Prezident İlham Əliyev "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda Vyana Beynəlxalq Konfransının iştirakçılarına məktub ünvanlayıb. Məktubda deyilir: "Hörmətli konfrans iştirakçıları! Sizi - Avstriya Respublikasının Vyana şəhərində keçirilən "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda Beynəlxalq Konfransın təşkilatçılarını və iştirakçılarını səmimi qəlbdən salamlayıram.***

Nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin, görkəmli elm və din xadimlərinin, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi bu mötəbər konfrans dünyada cərəyan edən ictimai-siyasi proseslərdə və sivilizasiyalararası dialoqda dinlərin və milli mədəniyyətlərin qarşılıqlı münasibətləri kimi aktual məsələlərin müzakirəsinə həsr olunmuşdur.

Dünyada sülh, dinc birgəyaşayış, humanizm dəyərlərinin təbliği və təşviqi günümüzün vacib məsələlərindəndir. Müasir dövrün çağırışları bəşəriyyət qarşısında ciddi vəzifələr qoyur. Təsadüfi deyil ki, etnik və dini müxtəlifliyin milli sərvət kimi qorunduğu, bütün konfessiyaların azad fəaliyyəti üçün bərabər şərait yaradıldığı Azərbaycan Respublikasında multikulturalizm və tolerantlıq dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Ölkəmiz müxtəlif mədəniyyətlərin ahəngdar münasibətlərinə və humanitar əməkdaşlıq ideyalarına hərtərəfli dəstək verir, bu sahədə çoxsaylı qlobal təşəbbüslər irəli sürür. Ümumdünya Mədəniyyətlərarası Dialoq və Beynəlxalq Humanitar forumlarının, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun, Dünya dini liderlərinin Zirvə görüşünün Bakıda keçirilməsi Azərbaycanın bu sahədəki fəaliyyətinin beynəlxalq birlik tərəfindən yüksək dəyərləndirildiyinin göstəricisidir. Biz müxtəlif dinlər və sivilizasiyalar arasında əməkdaşlığın genişlənməsinə, qlobal müstəvidə qarşılıqlı etimad mühitinin yaradılmasına mühüm töhfə olacaq daha bir beynəlxalq tədbirin - Dünya dini liderlərinin II Bakı Sammitinin keçirilməsi barədə qərar qəbul etmişik.

Ölkəmizin təşəbbüsü ilə keçirilən hazırkı konfransın təşkilinə Avstriya tərəfindən dəstəyi, konfransın işi üçün yaradılan şəraiti yüksək qiymətləndirirəm. Bu tədbirin birgə keçirilməsi, eyni zamanda, Azərbaycan-Avstriya əlaqələrinin, ölkələrimiz və xalqlarımız arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin bariz nümunəsidir.

İnanıram ki, xoşməramlı niyyətlərə xidmət edən Vyana Beynəlxalq Konfransı konstruktiv müzakirələr ruhunda keçəcək, bəşəri dəyərlərin təbliğinə, xalqlar arasında qarşılıqlı anlaşmaya, sivilizasiyalararası dialoqun və mədəni-mənəvi inteqrasiyanın inkişafına töhfələr verəcəkdir. Sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm".

# Ramiz Mehdiyev təhlükəsizlik məsələləri üzrə beynəlxalq görüşdə iştirak edib



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 18-də təhlükəsizlik məsələlərinə nəzarət edən ali nümayəndələrin 10-cu beynəlxalq görüşündə iştirak edib. AZƏRTAC xəbər verir ki, Rusiya Federasiyasının Ufa şəhərində keçirilən, 119 ölkənin təmsilçilərinin iştirak etdikləri görüşdə hibrid təhlükələrin artması şəraitində milli təhlükəsizliyin və dayanıqlı iqtisadi-sosial inkişafın təmin edilməsi məsələsi müzakirə olunub.

Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev görüşdə məruzə ilə çıxış edib, hibrid təhlükələrin proqnozlaşdırılması, qabaqlanması və qarşısının alınması istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlər barədə məlumat verib.

Görüşün gündəliyinə, həmçinin fövqəladə humanitar cavab tədbirləri sahəsində əməkdaşlıq, beynəlxalq informasiya təhlükəsizliyi sistemi və terrorçuluq ideologiyasının yayılmasına qarşı mübarizə sahəsində əməkdaşlıqla bağlı məsələlərin müzakirəsi daxildir. Tədbir çərçivəsində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev, Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas, Moldova Respublikası Ali Təhlükəsizlik Şurasının katibi Artur Qumenyuk və Qırğız Respublikası Təhlükəsizlik Şurasının katibi Dəmir Saqınbayev ilə ikitərəfli görüşlər keçirib. Görüşlərdə Təhlükəsizlik şuraları xətti üzrə əməkdaşlıq məsələləri müzakirə edilib.

# Əli Həsənov: "Sivilizasiyalar arasında dialoq dövlətin yürütdüyü ali siyasi kursdur"



"Dinlər, mədəniyyətlər və sivilizasiyalar arasında dialoq Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin istiqamətlərindən biridir. Azərbaycanın müstəqillik tarixinin son 25 ilində ölkə daxilində davamlı olaraq bu istiqamətdə dialoq dövlətin yürütdüyü ali siyasi kursdur. Lakin Azərbaycan bu dialoqu ölkə daxilində reallaşdırmaqla kifayətlənmir, eyni zamanda, qarşılıqlı hörmət və rəğbətə söykənən bu dəyərləri dövlətlərarası münasibətlərin əsas prinsiplərindən biri hesab edir. Dövlətlərarası müstəvidə bu, özünü müxtəlif sivilizasiyalar arasında əlaqələrin intensivləşməsində tapır". Bunu Azərbaycan nümayəndə heyətinin Avstriya hökumətinin və parlamentinin üzvləri ilə görüşündə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov deyib.

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi bildirib ki, Azərbaycan dövlətinin başçısı müxtəlif xüsusiyyətlərə malik sivilizasiyalar arasında dialoq, əməkdaşlıq və tərəfdaşlığı alternativi olmayan bir istiqamət hesab edir və dünya ölkələrinin bu siyasi xəttə əməl etməsi arzuolunandır: "Bütün dinləri və sivilizasiyaları təmsil edən nümayəndələrin, dövlət və hökumət rəsmilərinin iştirak edəcəkləri tədbirdə dinlərarası və sivilizasiyalararası əməkdaşlığa çağırış edən bəyannamənin qəbul olunacağı da gözlənilir. Konfransda müzakirəyə çıxarılacaq mövzular, ediləcək çağırışlar, onun təmsil etdiyi dəyərlər həm Azərbaycanın, həm Avstriyanın, həm də bütövlükdə Avropa İttifaqının kursuna tam uyğundur".

# Vüsal Qasımlı: "Prezidentin imzaladığı yeni sosial paket 2 milyondan çox insanı əhatə edəcək"






Prezident İlham Əliyevin imzaladığı yeni sosial paket 2 milyondan çox insanı əhatə edəcək. AZƏRTAC xəbər verir ki, bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlı Prezident İlham Əliyevin dövlət qulluqçularının, hərbi qulluqçuların, hüquq-mühafizə orqanı əməkdaşlarının və digər xüsusi rütbəli şəxslərin, müəllimlərin, habelə dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan işçilərin əməkhaqlarının, eləcə də minimum əməkhaqqının artırılması barədə sərəncamlarının əhəmiyyətinə dair keçirilən mətbuat konfransında deyib.




O bildirib ki, ölkə başçısı tərəfindən minimum əməkhaqqı məbləğinin 40 faizədək artırılaraq 250 manata çatdırılıb, bu da özəl sektorda çalışan 350 min vətəndaşla yanaşı, dövlət sektorunda Vahid Tarif Cədvəli əsasında əməkhaqqı alan 600 minədək şəxsin əməkhaqqının artımına səbəb olacaq.

"Dövlətimizin başçısı tərəfindən aparılan sosial-iqtisadi siyasətin qayəsində Azərbaycan vətəndaşının, onun sosial təminatının və rifahının dayandığını özündə növbəti dəfə bariz şəkildə ehtiva edən bu qərarlar ümumilikdə 2 milyondan çox insanı əhatə etməklə, həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan şəxslərin maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq", - deyə icraçı direktor əlavə edib.

Qeyd edib ki, Prezidentin ilin əvvəlindən həyata keçirdiyi sosial paketin əhatə dairəsi 3 milyard manatdan çoxdur.

"İmzalanan sərəncamlar minimum aylıq əməkhaqqının 180 manatdan 250 manata çatdırılmasını, dövlət qulluqçularının aylıq vəzifə maaşlarının 50 faiz, hərbi və hüquq-mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqlarının 40 faiz, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının orta hesabla 20 faiz, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşlarının orta hesabla 40 faiz artırılmasını nəzərdə tutur", - deyə o qeyd edib. V.Qasımlı, həmçinin əlavə edib ki, bu ilin əvvəlindən etibarən Prezident İlham Əliyev tərəfindən qəbul edilən qərarlar qlobal iqtisadiyyatda baş verən neqativ meyillərin ölkə əhalisinin sosial təminatına mənfi təsirini minimallaşdırmağa imkan vermişdisə, hazırkı sərəncamlar isə əhalinin gəlirlərinin artmasına, yığım imkanlarının genişlənməsinə şərait yaradacaq. Əməkhaqlarının əhəmiyyətli artımı əhalinin alıcılıq qabiliyyətinə müsbət təsir etməklə, iqtisadi aktivliyin daha da artmasına və beləliklə multiplikator effekti ilə iqtisadiyyatın digər sahələrinə də öz töhfəsini verəcək.




# Pensiyanın minimum məbləği 200 manata çatdırılır və artım 660 min pensiyaçını əhatə edəcək



Prezident İlham Əliyevin əhalinin rifah halının yaxşılaşdırılmasında növbəti inqilabi addımların atılmasına imkan verən sosial islahatlar paketi bu il ərzində minimum pensiyanın məbləğinin növbəti dəfə əhəmiyyətli şəkildə artırılmasına da şərait yaradıb. Belə ki, dövlət başçısının yeni qanunvericilik təşəbbüsü olaraq, əmək pensiyasının minimum məbləğinin 25 faiz artırılaraq bu il oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılması nəzərdə tutulur. Təşəbbüsə uyğun olaraq əmək pensiyasının minimum məbləğinin əhəmiyyətli şəkildə artırılmasına dair qanunvericilik layihəsi hazırlanaraq artıq Milli Məclisə təqdim olunub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, minimum pensiya məbləğinin artırılması ümumilikdə 660 min pensiyaçını əhatə edəcək. Artımın edilməsi üçün illik 216 milyon manat, bu il (oktyabr-dekabr ayları) üzrə 62 milyon manat əlavə vəsait yönəldiləcək.

Bu artım Prezident İlham Əliyevin təşəbbüsü ilə cari il ərzində əmək pensiyasının minimum məbləğinin artırılması istiqamətində atılan artıq ikinci mühüm addımdır. Bundan əvvəl də dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında pensiyanın minimum məbləği cari il martın 1-dən orta hesabla 40 faizədək artırılaraq 116 manatdan (bir sıra kateqoriyalar üzrə 80 manatdan) 160 manata çatdırılmış, həmin artım ümumilikdə 233 min pensiyaçını əhatə etmişdi. Beləliklə, təkcə bu il ərzində Azərbaycanda minimum pensiyanın məbləğində 72,4 faiz artım edilməklə, həmin məbləğin 116 manatdan 200 manata çatdırılması təmin edilib.

Əmək pensiyasının minimum məbləğinin növbəti dəfə əhəmiyyətli şəkildə artırılması Prezidentin "2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır" bəyanatının əməli müstəvidə, əhalinin, o cümlədən pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ciddi irəliləyişləri şərtləndirən ardıcıl addımların atılmasında öz təsdiqini tapdığını göstərir.

# Vyanada "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda beynəlxalq konfrans keçirilib






***İyunun 19-da Vyana şəhərinin "Hofburq" sarayında Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) nəzdində Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin, KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin, Cenevrə İnsan Hüquqları və Qlobal Dialoq Mərkəzinin və Azərbaycanın Avstriyadakı səfirliyinin birgə təşkilatçılığı ilə "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda beynəlxalq konfrans işə başlayıb.***



AZƏRTAC xəbər verir ki, konfransın təşkili Prezident İlham Əliyevin irəli sürdüyü Azərbaycanın multikulturalizm modelinin təbliğinin bəşəri önəminə diqqət çəkmək, dinlərarası və sivilizasiyalararası dialoq və əməkdaşlığın inkişaf etdirilməsinin müasir dünyanı narahat edən problemlərin aradan qaldırılmasında müstəsna əhəmiyyətini vurğulamaq məqsədi daşıyır.

Konfransın açılışında Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov dövlətimizin başçısı İlham Əliyevin tədbir iştirakçılarına müraciətini oxuyub.

Tədbirdə çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Prezident İlham Əliyevin salamlarını və xoş arzularını çatdırıb. Şeyxülislam qeyd edib ki, kəskin ziddiyyətlər, terror, dini və milli zəmində ekstremizm, ksenofobiya, xristianofobiya, antisemitizm və islamofobiyanın tüğyan etdiyi, dini-mədəni dəyərlərə savaş açıldığı narahat dünyamıza Azərbaycan öz nadir təcrübəsini - multikulturalizm modelini təklif edir. Bu model Azərbaycan Prezidentinin müəllifi olduğu mədəniyyətlərarası əməkdaşlığa dair "Bakı Prosesi", elan etdiyi "Multikulturalizm" və "İslam həmrəyliyi" illəri çərçivəsində ölkəmizdə və xaricdə mütəmadi keçirilən qlobal forum və tədbirlərdə təbliğ və təşviq olunur.

Eyni zamanda, 2017-ci ildə dövlətimizin başçısının tövsiyəsi ilə Qafqaz Müsəlmanları İdarəsi nəzdində yaradılmış Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzi artıq İspaniyada və Almaniyada uğurlu beynəlxalq konfranslar təşkil edib. Vyanada təşkil edilən konfrans da bu qəbildən növbəti nüfuzlu tədbirdir. Milli və bəşəri dəyərlərə, multikultural ənənələrə hər zaman böyük önəm verən Azərbaycan bu gün dünyanın mənəvi dəyərlər mərkəzi olaraq tanınır. Multikulturalizm ölkəmizdə dövlət siyasəti səviyyəsində həyata keçirilir və bu müdrik siyasətin bünövrəsi ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Bu siyasəti yüksək səviyyədə davam və inkişaf etdirən Prezident İlham Əliyevin fəaliyyəti sayəsində bu gün Azərbaycan dinlərarası, konfessiyalararası, həmçinin məzhəblərarası həmrəyliyin nadir nümunəsinə malik bir məkan, milli birlik, mənəvi vəhdət, dini-mədəni müxtəlifliyin nadir nümunəsidir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın dünya miqyasında mədəni sahədə çox uğurlu fəaliyyəti, mili-mənəvi irsimizi ən yüksək səviyyədə təbliğ etməsi ilə yanaşı, ümumbəşəri dəyərlərə diqqət və himayəsi Azərbaycanın bu istiqamətdə söz sahibinə çevrilməsinə ali xidmət oldu.

A.Paşazadə bildirib ki, Azərbaycan uzun illər davam edən, regionda və dünyada sülhə təhdid olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində yaranmış problemin ərazi bütövlüyümüz çərçivəsində həllini istəyir, Ermənistan tərəfindən BMT-nin məlum qətnamələrinə əməl olunmasını tələb edir və ATƏT-in Minsk qrupunun sülhyaratma missiyasından real nəticə gözləyir.

Şeyxülislam vurğulayıb ki, bu ilin payızında "Dünya dini liderlərinin II Bakı Sammiti" sivilizasiyalararası dialoqun inkişafına, qlobal müstəvidə insan hüquqlarının təmini və qarşılıqlı etimad mühitinin yaradılması işinə Azərbaycan dövlətinin daha bir dəyərli töhfəsi olacaq.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında bildirib ki, hazırda dünya miqyasında dini ayrı-seçkiliyin gücləndiyi, bəzən dini zəmində qarşıdurmaya bilərəkdən rəvac verildiyi dövrdə yaşayırıq. Bu səbəbdən dini dözümlülüyün, tolerantlığın hakim mövqe tutması, dinlərarası əməkdaşlıq və bəşəri həmrəylik mühüm əhəmiyyət daşıyır.

Qeyd edilib ki, Azərbaycan bu gün sülhsevərliyi, həmrəyliyə və birliyə verdiyi yüksək dəyəri ilə seçilir. Azərbaycan xalqı müxtəlif dini inancların birgəyaşayış ənənələrini zənginləşdirərək bütün dünya üçün örnək ola biləcək dini tolerantlıq modelini yaradıb. Azərbaycanın dövlət-din münasibətlərində uğurlarının səbəbi dinlə bağlı siyasətin sağlam və düzgün istiqamətdə qurulmasıdır. Ümummilli lider Heydər Əliyevin siyasəti nəticəsində Azərbaycanda bu münasibətlərin beynəlxalq hüququn normaları müstəvisində tənzimlənməsi, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılması üçün hüquqi baza yaradılıb. Azərbaycanın dövlət-din münasibətləri modeli Prezident İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun olaraq daha da təkmilləşdirilib.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov müasir dünyada radikalizmin bütün növlərinə qarşı mübarizənin vacibliyini qeyd edərək, eyni zamanda, dinlərarası və mədəniyyətlərarası dialoqun inkişafına da diqqətin ayrılmasının zəruri olduğunu vurğulayıb. O, bu dialoqun inkişaf etdirilməsində konkret ideyaların müəyyənləşdirilməsini mühüm addım kimi dəyərləndirərək, xoş mərama söykənməli olan bu ideyaların geniş ictimaiyyət arasında təbliğinə xüsusi diqqət yetirilməsinin önəmini qeyd edib.

BMT Baş katibinin müavini Rəşid Xalikov müasir dövrdə bəşəriyyətin dinlərarası və mədəniyyətlərarası dialoqa daha güclü ehtiyac duyduğunu deyib, sülh, əmin-amanlıq, dinc birgəyaşayış və ədalət kimi bəşəri dəyərlərin cəmiyyətdə daha geniş təbliğ edilməli olduğunu bildirib. Qeyd edilib ki, hazırda dünyada yardıma ehtiyacı olan insanların sayı durmadan artır. BMT və digər beynəlxalq təşkilatlar dünyanın müxtəlif regionlarında qaçqın və yoxsul əhali təbəqələrinə yardımlar edir. Bu da, öz növbəsində, tolerant və səxavətli yanaşmanı, yardımlaşma istəyini, dinlərarası və mədəniyyətlərarası dialoqun daha da gücləndirilməsini tələb edir.

BMT Baş katibinin müavini, təşkilatın Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Angel Moratinos sivilizasiyalararası dialoqun əhəmiyyətindən bəhs edib. O, Prezident İlham Əliyevin 2016-cı ili ölkədə "Multikulturalizm İli", 2017-ci ili isə "İslam Həmrəyliyi İli" elan etməsini Azərbaycanın bu sahədə nə qədər uzaqgörən siyasət yürütdüyünü və dünyada öncül mövqedə dayandığını vurğulayıb.

Qeyd edək ki, tədbirdə dünyanın 30-dan çox ölkəsini təmsil edən 300-ə yaxın dövlət, ictimaiyyət, elm və din xadimləri, həmçinin 5 beynəlxalq və 16 qeyri-hökumət təşkilatının rəhbərləri, o cümlədən, BMT-nin Baş katibinin müavinləri, Avstriya tərəfdən Federal Hökumətin və parlamentin nümayəndələri, habelə bu ölkədə akkreditə olunmuş səfirliklərin və beynəlxalq təşkilatların, dini konfessiyaların üzvləri iştirak edirlər.

# Əli Əhmədov: “Azərbaycan vətəndaşını daha yüksək rifah gözləyir”

“Prezident İlham Əliyevin sərəncamları ilə bir çox sahələrdə çalışan insanların əmək haqqı 40 faiz artırılır. Ən önəmlisi minimum əməkhaqqının 250, minimum pensiyaların isə 200 manat məbləğində müəyyən edilməsidir. Bir neçə ay bundan əvvəl isə minimum əməkhaqqı və pensiyalar təxminən 40 faiz artırılmışdı. Beləliklə toplam artım təxminən 100 faizə bərabər olmuşdur. Minimum əməkhaqqının artırılması nəticəsində yüz minlərlə insanların maaşları 270-350 manat civarında artmış olacaq.” Bu fikirlər Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədovun rəsmi facebook səhifəsində yayımladığı “Azərbaycan vətəndaşını daha yüksək rifah gözləyir” sərlövhəli məqaləsində yer almışdır.



Əli Əhmədov özünün rəsmi facebook səhifəsində etdiyi paylaşımda daha sonra qeyd edib: “Məlumdur ki, Prezident İlham Əliyevin sərəncamları ilə 2003-cü ildən bu yana əməkhaqqı və pensiyalar dəfələrlə qaldırılıb. Bu, faktdır. Lakin 2019-cu il əhalinin sosial müdafiəsi sahəsində daha cəsarətli və əhəmiyyətli addımlar atılması ilə səciyyəvidir. İnsanların rifahının yaxşılaşdırılmasını özünün siyasətinin əsas məqsədi hesab edən Prezident İlham Əliyev bunu real həyatda əyani şəkildə təcəssüm etdirir. Xalqın həyat səviyyəsi sözün həqiqi mənasında gündən günə yaxşılaşır. Bu isə insanların xəyallarını gerçəkləşdirməsi üçün daha geniş imkanlar yaradır.

Azərbaycanı daha firavan gələcək, vətəndaşı daha yüksək rifah gözləyir. Məqsədimiz bu gələcəyə doğru inamla və qətiyyətlə irəliləməkdir. İndi sözüm vaxtilə iqtidarda olub Azərbaycanın bu gününə böhtan atanlaradır. Onlar hakimiyyətdə olduqları dövrdə əməkhaqqının artırılması ilə əlaqədar bir fakt belə xatırlayırlarmı? Ümumiyyətlə AXC-Müsavat hakimiyyətinin siyasi leksikonunda əməkhaqqının artırılması, insanların həyatının yaxşılaşdırılması anlayışları vardımı? Əlbəttə ki, yox idi. Çünki iflasa uğramış, ölkəni ağır iqtisadi tənəzzül vəziyyətinə salmış keçmiş hakimiyyətin bu barədə düşünməyə nə həvəsi var idi, nə də imkanı. Xəzinədə pul yox idi. Dövlət büdcəsi işləyirdi. AXC-Müsavat hakimiyyəti dünyaya əcaib nümunə göstərmişdi: büdcəsiz dövlət.

Törətdikləri biabırçılıqların heç yüzdən birini də təşkil etməyən sadaladığım faktların “müəlliflərinin” bugünki firavan, müasir, inkişaf edən Azərbaycana böhtan atması insan əxlaqının eybəcərləşməsindən başqa bir şey deyildir. Nə qədər böhtan atsalar da, nankorluq etsələr də möhtəşəm Azərbaycan özünün işıqlı gələcəyinə doğru inamla irəliləyir, insanlar isə bunun faydasını görür və bundan sonra da görəcəklər.”

# Anar Əliyev: “Həyata keçirilən sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşı durur”

***Dövlət başçısı İlham Əliyevin əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə əlaqədar imzaladığı Sərəncamlar ölkə vətəndaşlarının maddi vəziyyətinin yaxşılaşdırılması üçün atılan çox mühüm addımdır. AZƏRTAC xəbər verir ki, həmin addımları şərh edən Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Əliyev deyib: “Prezident İlham Əliyevin sosial islahatlar paketi cari ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsində, ümumən sosial inkişafda inqilabi addımların atılması ilə nəticələnir.***

Bu il martın 1-dən həm minimum pensiyalar, həm də minimum əməkhaqqının məbləği orta hesabla 40 faiz artırılıb. Aparılan islahatlar nəticəsində tətbiq edilən artımlar həm minimum əməkhaqqı, həm də minimum pensiyalar sahəsində minimum standartlara çatmağa imkan verib.

Dövlət başçısının iyunun 18-də imzaladığı Sərəncamlarla 1 milyon 350 min insanın əməkhaqlarında ciddi artımlar edilir. Eyni zamanda, minimum əməkhaqqının artımı məqsədilə imzalanan həmin Sərəncamla Azərbaycanda minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılmaqla 180 manatdan 250 manata çatdırılacaq. Bununla da ölkəmizdə minimum əməkhaqqının məbləğinin yaşayış minimumunu (180 manat) 40 faizədək üstələməsi təmin edilir. Bu artım birbaşa olaraq 950 minədək vətəndaşı əhatə edəcək. Həmin insanlardan 600 mini dövlət sektorunda, 350 mini özəl sektorda işləyənlərdir. Bu artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon, 2019-cu il (sentyabr-dekabr ayları) üzrə 245 milyon manat əlavə vəsait ayrılması təmin olunacaq.



Onu da qeyd edim ki, bununla bu il ərzində minimum əməkhaqları artıq ikinci dəfə ciddi şəkildə artır. Yəni bundan əvvəl dövlət başçısının bu il fevralın 8-də imzaladığı Sərəncamla da minimum əməkhaqqı 130 manatdan 180 manata çatdırılmış və bu artım 600 minədək insanı əhatə etmişdi. Beləliklə də, Prezident İlham Əliyevin uğurlu sosial islahatlar proqramı təkcə bu il ərzində minimum əməkhaqqının təqribən iki dəfəyə yaxın artırılmaqla 130 manatdan 250 manata çatdırılmasına imkan yaradıb.

Həmçinin Prezidentin təşəbbüsü ilə pensiyaların minimum məbləği oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılacaq. Bu, təxminən 25 faiz artım deməkdir. İlkin hesablamalara görə, yeni artım 660 mindən çox pensiyaçını əhatə edəcək. Bu il oktyabrın 1-dən isə 200 manatdan aşağı pensiya alan vətəndaş olmayacaq. Minimal pensiya səviyyəsinin artımı da il ərzində həyata keçirilən ikinci ciddi artımdır. Belə ki, dövlət başçısının təşəbbüsü ilə qəbul olunan qanunla bu ilin martın 1-dən minimal pensiya məbləği də 116 manatdan 160 manata çatdırılmışdı, bu il oktyabrın 1-dən isə 160 manatdan 200 manata qaldırılacaq. Yəni göründüyü kimi, bu il ərzində Azərbaycanda minimum pensiya məbləğinin əhəmiyyətli şəkildə artması təmin edilib”.

Anar Əliyev daha sonra deyib: “Prezidentin Sərəncamını təhlil edəndə islahatların bütün sahələri əhatə etdiyi və kompleks şəkildə sosial siyasət həyata keçirildiyi ortaya çıxır. Həmin siyasətin mərkəzində isə Azərbaycan vətəndaşı durur. Həyata keçirilən həmin siyasət nəticəsində vətəndaşların gəlirləri artır, sosial rifahı yaxşılaşır. Aztəminatlı əhalinin gəlirlərini artıranda və həmin əhalinin istehlak səbətinin xeyli hissəsinin yerli istehsal hesabına formalaşdığı məlum olur. Bu o deməkdir ki, həmin təbəqəyə məxsus olan şəxslərin istehlakı yerli istehsalla əlaqədar olaraq artır və bu da yerli istehlakı stimullaşdıran və iş yerlərinin yaradılmasını təmin edən amillərdən biridir. Bütün bu tədbirlər dövlət başçısı tərəfindən düşünülmüş şəkildə və iqtisadi siyasətlə əlaqəli şəkildə həyata keçirilir. Yerli istehsalı, xüsusən qeyri-neft sektorunun stimullaşdırdığı minimum əməkhaqqı və minimum pensiyaların, sosial ödənişlərin məbləğini artırmaqla yerli istehsal üçün bir tələb yaradılmış olur. Atılan bu addımların mahiyyətində həm də sosial ədalətin təmin olunması dayanır”.

# Con Bolton: ABŞ Azərbaycan və Ermənistan arasındakı dialoqu təşviq etməyə davam edəcək



ABŞ Dağlıq Qarabağ münaqişəsi məsələsində Azərbaycan və Ermənistan arasında dialoqun inkişafını təşviq etməyə davam edəcək. Trend-in məlumatına görə, bunu öz “Twitter” səhifəsində ABŞ Prezidentinin təhlükəsizlik üzrə müşaviri Con Bolton deyib.

C.Bolton Ermənistan və Azərbaycan Xarici İşlər nazirliklərinin rəhbərləri arasında davam edən diaoloqun təşviq edilməsi üçün bu həftə onlar arasında keçiriləcək görüşü gözlədiyini bildirib. Onun sözlərinə görə, ABŞ “regionda sülhü təşviq etməyə hazırdır”.

# Sosial sahədə inqilabi addımların növbəti mərhələsi başlandı



“Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə ölkədə minimum əməkhaqqı sentyabr ayının birindən 250 manat oldu. Yada salım ki, ilin əvvəlindən bu məbləğ 130 manat idi, martın birində 180 manata qaldırıldı. Beləliklə, ilin əvvəlindən Azərbaycanda minimum əmək haqqı iki dəfə artırılmış oldu”. Bunu SİA-ya millət vəkili Aydın Mirzəzadə deyib.

Deputatın sözlərinə görə, bundan başqa cənab Prezidentin elə indicə imzaladığı sərəncamlarla dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatların işçilərinin, hərbi qulluqçuların, diaqnostik qiymətləndirmədən keçən müəllimlərin maaşları və bir sıra digər təşkilatların işçilərin əmək haqqı 40 faiz artırılıb: “Əmək haqqlarının artırılması ilə bağlı sərəncamlar imzalanmaqda davam edir. Bu faktiki olaraq milyonlarla vətəndaşlarımızın gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq. Maaş artımı Azərbaycan üzrə orta əmək haqqının da müvafiq olaraq xeyli artmasına gətirib çıxaracaq. Cənab Prezident dəfələrlə öz çıxışlarında əmək haqqlarının artacağını elan etmişdi və onun apardığı siyasət növbəti dəfə sadə vətəndaşın rifahında öz nəticəsini konkret olaraq göstərir”.

# “İkinci sosial paketin müsbət nəticələri bütün ailələrdə hiss olunacaq”

Dövlətimizin başçısı İlham Əliyevin dünən verdiyi Sərəncamlar bir daha sübut etdi ki, Prezident daim vətəndaşların sosial ehtiyaclarını düşünür və onların maddi rifahının yüksəldilməsi istiqamətində əməli addımlar atır. Bu kimi sosial tədbirlərin həyata keçirilməsi dövlət siyasətinin tərkib hissəsini təşkil edir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Xanlar Fətiyev deyib. Deputat bildirib ki, bu Sərəncam ölkəmizdə vətəndaşların maddi rifah halının yaxşılaşdırılması istiqamətində 2019-cu ilin elə ilk aylarından atılan inqilabi addımların davamıdır. “Bildiyiniz kimi, bu ilin mart ayının 1-dən minimum əməkhaqqı 38,4 faiz, yəni 50 manat artırılaraq 130 manatdan 180 manata çatdırıldı. Bununla da Azərbaycanda təxminən 400 mindən çox vətəndaşın əməkhaqqıları yüksəldi. Sentyabrın 1-dən isə minimum əməkhaqqı nəzərə çarpacaq dərəcədə qaldırılır və 250 manat olacaq. Bu isə ötən ilə nisbətdə təxminən 100 faiz artım deməkdir. Bu, əhalinin maddi-sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində əsl inqilabdır”,- deyə X.Fətiyev əlavə edib.

Deputat qeyd edib ki, dövlətimizin başçısının müvafiq Sərəncamının əhalinin sosial müdafiəsinin gücləndirilməsi, yoxsulluğun aşağı salınması və əhalinin sosial rifah halının yüksəldilməsi istiqamətində çox böyük əhəmiyyəti olacaq. Minimum əməkhaqqının artırılması, 250 manata çatdırılması rəsmi hesablamalara görə dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşları üzrə orta əməkhaqqının da orta hesabla 40 faiz artırmağa imkan verəcək. Beləliklə, reallaşmağa başlayacaq ikinci sosial paketin müsbət nəticələri demək olar ki, bütün ailələrdə hiss olunacaq.

# İsa Həbibbəyli: “Maaş artımı AMEA-nın 300-dən çox əməkdaşına şamil edilir”

“Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və aparatı, Gəncə bölməsinin aparatında çalışan rəhbər və digər işçilərin aylıq vəzifə maaşlarının 2019-cu il sentyabrın 1-dən orta hesabla 40 faiz artırılması barədə Sərəncam AMEA-nın Rəyasət Heyətində təmsil olunan və ona bağlı idarəetmə qurumlarında çalışan 300 nəfərdən çox əməkdaşa şamil edilir”.



Bunu “SƏS”ə açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, millət vəkili İsa Həbibbəyli deyib.

İsa Həbibbəyltinin sözlərinə görə, dövlət başçısının Sərəncamı AMEA Rəyasət Heyəti Aparatının əməkdaşlarının əməkhaqqının 40 faiz həcmində qaldırılması deməkdir. Bu isə, Azərbaycanın sosial siyasətində inqilabi hadisədir: “Bu Sərəncam AMEA-nın Rəyasət Heyətində və ona bağlı idarəetmə qurumlarında təmsil olunan 300 nəfərdən artıq şəxsə aiddir. Bu, Azərbaycan Prezidentinin yerli ziyalılara və AMEA-ya göstərdiyi yüksək etimadı nümayiş etdirir. Prezident tərəfindən atılan bu böyük addım Azərbaycan elminin məsuliyyətini daha da artıracaq, onu yeni hədəflərə doğru inkişaf etdirəcək. Bu Sərəncam AMEA-nın inkişafında həlledici əhəmiyyət kəsb edəcək. Akademiyanın bütün kollektivi adından Prezidentə dərin minnətdarlığımı bildirərəm. Əminəm ki, AMEA işçiləri dövlət qayğısının cavabını özlərinin əməli işlərində göstərə biləcəklər”.

İ.Həbibbəyli, ölkə başçısı tərəfindən, son 16 il ərzində aparılan sosial-iqtisadi siyasətin qayəsində Azərbaycan vətəndaşının, onun sosial təminatının və rifahının dayandığı növbəti dəfə bariz şəkildə ehtiva edildiyini vurğulayıb. Bildirib ki, bu qərarlar, ümumilikdə, iki milyondan çox insanı əhatə etməklə, həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan şəxslərin maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaqdır. Prezidentin imzaladığı yeni sosial paket isə iki milyondan çox insanı əhatə edəcək.

Millət vəkili, onu da vurğulayıb ki, birmənalı tərzdə, demək olar ki, Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlarda əhalinin aztəminatlı hissəsinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması başlıca hədəf olub: “Dünyanın heç bir ölkəsi öz vətəndaşlarının üzləşdiyi problemləri həll etmək üçün bu qədər addım atmır. Azərbaycanda isə, sosial problemlərin həllinə sistemli, ardıcıl və strateji yanaşma var. Bununla yanaşı, fövqəladə hallarda Azərbaycan Prezidentinin qəbul etdiyi bir çox qərarlar da, sosial problemlərin həllində və vətəndaş məmnunluğunun təmin olunmasında mühüm rol oynayır. Nizami rayonundakı “Diqlas” Ticarət Mərkəzində baş verən yanğın zamanı sahibkarlara dəyən ziyanın ödənilməsi üçün Prezidentimiz müvafiq göstərişlər verdi, müşavirə keçirdi, eyni zamanda, sahibkarlara ödənilməsi üçün 3 milyon manat vəsaitin ayrılması barədə Sərəncam imzaladı. Bu baxımdan, demək olar ki, Azərbaycan Prezidenti İlham Əliyev ümidsiz qalmış insanların ümididir”.

İ.Həbibbəyli onu da bildirib ki, Prezident İlham Əliyev tərəfindən atılan addımlar, görülən işlər bir daha isbatlayır ki, Azərbaycanda həyata keçirilən sosial siyasət sistemli və düşünülmüş kompleks tədbirlərdən ibarətdir: “Təbii ki, bu uğurlu sosial siyasət Prezidentimizin dəyişməz siyasəti, apardığı xeyirli və gərəkli fəaliyyəyinin aparıcı xəttidir”.

**R. KAMALQIZI**

# Sevinc Fətəliyeva: “Prezident İlham Əliyevin siyasətində əhalinin sosial müdafiəsinin, davamlı olaraq gücləndirilməsi daim diqqət mərkəzindədir”

***“Azərbaycan Prezidenti İlham Əliyevin siyasətində əhalinin sosial müdafiəsinin, davamlı olaraq gücləndirilməsi daim diqqət mərkəzindədir. İyunun 18-də dövlət başçısının sərəncamları ilə minimum əməkhaqqının 250 manata qədər artırılması, eləcə də, müxtəlif kateqoriyalar üzrə əməkhaqlarının artılması bu faktı bir daha təsdiqləyir. Ölkəmizin iqtisadi inkişafı insanların sosial rifahının yüksəlməsi ilə müşayiət olunur”. Bu fikirləri “SƏS”ə açıqlamasında Milli Məclisin Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.***



S.Fətəliyeva bildirib ki, Azərbaycan sosial-iqtisadi sferada sürətli inkişaf yoluna qədəm qoyub. Onun sözlərinə görə, əhalinin sosial rifahının yüksəldilməsi üçün lazımi addımlar atılır: “Əməkhaqları, pensiya təminatı sahəsində aparılan ciddi islahatlar, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün həyata keçirilən geniş proqramlar, şəhid ailələrinə göstərilən qayğı, sosial sahə ilə bağlı qəbul olunan çoxsaylı qanunlar və s. cəmiyyətin rifah halının yaxşılaşmasına yönəlmiş tədbirlərdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişafın Azərbaycan modeli formalaşıb və sosial inkişaf məsələləri də dövlət siyasətinin prioritetləri sırasındadır. Dövlət başçısının vurğuladığı kimi, ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır”.

Millət vəkilinin sözlərinə görə, sosial siyasətdən bəhs edərkən, son vaxtlar ölkə Prezidenti İlham Əliyev tərəfindən bu istiqamətdə atılan addımlar xüsusi vurğulanmalıdır. Belə ki, dövlət başçısının şəhid ailələrinin üzvləri ilə görüşməsi, torpaqlarımızın müdafiəsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin ailə üzvlərinə, onların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmənin verilməsi haqqında Fərmanın imzalanması, şəhid ailələri üçün Prezident təqaüdünün məbləğinin artırılması, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün qəsəbələrin tikintisi, minimum əməkhaqqının və minimum pensiyanın artırılması, məhz ölkəmizdə həyata keçirilən uğurlu sosial siyasətin əhəmiyyətini bir daha təsdiqləyir.

Deputat onu da deyib ki, dövlət başçısının problemli kreditlərin həlli ilə bağlı verdiyi qərar da vətəndaşlarda böyük məmnunluq doğurdu. Bu faktlar bir daha təsdiqləyir ki, dövlət vətəndaşları narahat edən məsələlərin həllinə diqqətlə yanaşır.

“Beləliklə, sosial ədalət prinsiplərinin daha da möhkəmləndirilməsi məqsədi ilə ölkə başçısı tərəfindən minimum əməkhaqqı məbləği 40 faizə yaxın artırılaraq, 250 manata çatdırılması özəl sektorda çalışan 350 min vətəndaşla yanaşı, dövlət sektorunda Vahid Tarif Cədvəli əsasında əməkhaqqı alan 600 minə yaxın şəxsin əməkhaqqının artımına səbəb olacaq. Cənab Prezident tərəfindən aparılan sosial-iqtisadi siyasətin qayəsində Azərbaycan vətəndaşının, onun sosial təminatının və rifahının dayandığını özündə növbəti dəfə bariz şəkildə ehtiva edən bu qərarlar, ümumilikdə, 2 milyondan çox insanı əhatə etməklə, həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan şəxslərin maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq” deyə S.Fətəliyeva vurğulayıb.

**Rəfiqə KAMALQIZI**

# “Bu artım 950 minədək vətəndaşı əhatə edəcək”

Prezident İlham Əliyevin “Minimum aylıq əməkhaqqının artırılması haqqında” 2019-cu il iyunun 18-də imzaladığı Sərəncam respublikamızda əhalinin rifah halının yaxşılaşdırılması sahəsində 2019-cu ilin ilk aylarından atılan inqilabi addımların davamıdır. Sərəncama əsasən, Azərbaycanda minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılacaq. Bununla da ölkəmizdə minimum əməkhaqqının məbləğinin yaşayış minimumunu (180 manat) 40 faizədək üstələməsi təmin edilir. SİA-ya Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, minimum əməkhaqqının artımı birbaşa olaraq 950 minədək vətəndaşı əhatə edəcək.

Onlardan 600 mini dövlət sektorunda, 350 mini özəl sektorda işləyənlərdir. Həmin artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon, 2019-cu il (sentyabr-dekabr ayları) üzrə 245 milyon manat əlavə vəsait ayrılması təmin olunacaq.



Sərəncamla minimum əməkhaqqının məbləğinin 250 manata çatdırılması dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşları üzrə orta əməkhaqqının da orta hesabla 40 faiz artmaqla 265 manatdan 367 manata çatmasına imkan verir.

Yeni “Minimum aylıq əməkhaqqının artırılması haqqında” Sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq edir və bu istiqamətdə cari il ərzində artıq ikinci böyük sosial paketin reallaşdırıldığını göstərir. Belə ki, bundan əvvəl dövlət başçısının bu il fevralın 8-də imzaladığı Sərəncamla da minimum əməkhaqqı 130 manatdan 180 manata çatdırılmış və həmin artım 600 minədək insanı əhatə etmişdi. Dövlət başçısının uğurlu sosial islahatlar proqramı təkcə bu il ərzində minimum əməkhaqqının təqribən iki dəfəyə yaxın artırılmaqla 130 manatdan 250 manata çatdırılması kimi əhalinin rifahına ciddi dəstək olan mühüm sosial uğura nail olmağa imkan verib. Artımdan sonra Azərbaycan Respublikasında minimum əməkhaqqı MDB ölkələri arasında alıcılıq qabiliyyətinə görə ikinci yerdə qərarlaşacaq.

# Dövlət başçısının verdiyi qərarlar Azərbaycanın sosial rifah dövləti olduğunu bir daha təsdiqləyir



*Milli Məclisin deputatı Cavid Osmanovun yap.org.az-a müsahibəsi*

***- Cavid müəllim, 2004-cü ildən etibarən ölkəmizdə regionların sosial-iqtisadi inkişafı ilə bağlı 3 Dövlət Proqramı uğurla icra edildi. Hazırda dördüncü Dövlət Proqramı həyata keçirilir. Bu baxımdan, ölkəmizin regionlarının inkişaf səviyyəsini necə dəyərləndirirsiniz?***

- Ümumiyyətlə, qeyd etdiyiniz dövr ərzində Azərbaycanın regionları əhəmiyyətli dərəcədə inkişaf edib. 2004-cü ildən etibarən Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları bütövlükdə ölkənin iqtisadi potensialının artırılmasında və əhalinin maddi rifah halının yaxşılaşmasında mühüm rol oynadı. Keçən 15 il ərzində 3 Dövlət Proqramının icrası nəticəsində Azərbaycan iqtisadiyyatı 3,3 dəfə artaraq dünya miqyasında rekord göstəriciyə imza atdı. İxracın 4,7 dəfə, valyuta ehtiyatlarımızın isə 24 dəfə artması və paralel olaraq iqtisadiyyata 250 milyard dollar investisiya qoyulması nəticəsində Azərbaycan güclü və regional iqtisadiyyat qurmağa nail oldu.

Ölkənin dayanıqlı və inklüziv inkişafına nail olmaq məqsədilə Prezident İlham Əliyev tərəfindən aparılan geniş islahatlar paketi regionların inkişafına da mühüm təsir edir və görülən uğurlu işlərin davam etdirilməsi üçün qəbul edilən yeni 4-cü Dövlət Proqramı da regionların sosial-iqtisadi inkişafını sürətləndirməklə yanaşı, bütövlükdə Azərbaycan iqtisadiyyatının daha sürətli inkişafının təmin edilməsi və əhalinin rifah halının daha da yaxşılaşması yönümündə hazırlanmış mühüm Dövlət proqramıdır. Dövlət başçısının da dediyi kimi, ilkin hesablamalara görə, regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının icrası üçün ən azı 17 milyard manatdan çox vəsait nəzərdə tutulur. Bir sözlə, dövlət başçısının qeyd etdiyi kimi, bundan sonra da ölkəmiz yalnız inkişaf, tərəqqi və qələbələr yolu ilə gedəcək.

Qeyd edim ki, bu inkişaf nəticəsində Azərbaycanın regionları bu gün dünyanın turizm məkanlarına çevrilməkdədir. Hər il minlərlə, on minlərlə xarici turist Azərbaycanın bölgələrinə, son dərəcədə müasir və beynəlxalq standartlara cavab verən istirahət, turizm məkanlarına axın etməkdədirlər.

***- Prezident İlham Əliyevin imzaladığı sosialyönümlü Sərəncam və fərmanlara diqqət çəkmək istərdik. Bu ilin əvvəlindən bu istiqamətdə mühüm qərarlar verilib. İyunun 18-də isə dövlət başçısının Sərəncamı ilə minimum əməkhaqqının məbləği artırılaraq 250 manat müəyyən edilib. Cənab Prezidentin verdiyi qərarların insanların həyatına, rifah halının yüksəldilməsinə təsirini necə qiymətləndirirsiniz?***

- Prezident İlham Əliyevin ölkə əhalisinin sosial rifahının yüksəldilməsinə dair həyata keçirdiyi işlərin miqyası gündən-günə genişlənir. Təsadüfi deyil ki, ötən il seçkilərdə qələbə qazandıqdan sonra Prezident İlham Əliyevin imzaladığı ilk Fərman şəhid vərəsələrinə birdəfəlik ödəmənin verilməsi ilə bağlı olub. Dövlətimizin başçısının ölkənin sosial həyatında inqilabi addımların davamlı xarakter aldığını göstərən qərarları ilə bu ilin əvvəlində minimum pensiya məbləği, minimum əməkhaqqı orta hesabla 40 faiz artırılmışdı. Cənab İlham Əliyevin 2019-cu il 25 fevral tarixli Sərəncamı ilə isə 600 minədək şəxsə, o cümlədən 300 min əlilliyi olan şəxsə yönələn sosial müavinətlər, təqaüdlər orta hesabla 100 faiz artırıldı, əlavə olaraq bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdləri təsis olundu.

Bu ilin fevral ayının sonlarında imzalanan Sərəncamla məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün aylıq müavinət 50 faiz artırıldı ki, bu da minlərlə məcburi köçkünün rifah halının yüksəldilməsinə xidmət edir. Həmçinin bu il tələbələrin də təqaüdlərinin ciddi şəkildə artırılması təmin olundu. Azərbaycan Prezidentinin humanizm prinsiplərinə söykənən sosialyönümlü siyasətini, daim hər bir vətəndaşının yanında olduğunu təsdiqləyən digər bir addım isə 800 mindən çox insanın problemli kredit məsələsini aradan qaldıracaq Fərman oldu. Dövlətimizin başçısı tərəfindən imzalanan daha bir Fərmanla isə istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərindən ibarət 350-400 min insanın mənafeyi təmin olundu.

Qeyd etdiyiniz kimi, iyunun 18-də dövlət başçısının imzaladığı Sərəncamla minimum əməkhaqqının məbləği 250 manata çatdırılıb. Bu qərar sentyabrın 1-də qüvvəyə minəcək. Belə bir qərarın verilməsi çox önəmli bir addımdır. Bu fakt bir daha göstərir ki, dövlətimizin siyasətində vətəndaş amili öndə dayanır. Dövlət başçısının digər sərəncamları ilə müxtəlif sahələrdə çalışan insanların da əməkhaqları artırılıb. Bütün bunlar Azərbaycanın sosial rifah dövləti olduğunu bir daha təsdiqləyir.

Göründüyü kimi, sosial sahədə atılan bu mütərəqqi addımlar Azərbaycan vətəndaşının maraqlarının dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayandığını bir daha təsdiqləyir. Bütün atılan addımlar Prezident İlham Əliyevin güclü sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir və ictimaiyyət tərəfindən çox yüksək qarşılanır.

***- Sizcə, görülən işlər perspektiv üçün nələr vəd edir?***

- Təbii ki, ötən illər ərzində reallaşdırılan məqsədyönlü siyasət sayəsində Azərbaycan bütün sahələrdə böyük uğurlara nail olub. Bu gün Cənubi Qafqaz regionunun iqtisadiyyatının təxminən 71 faizi Azərbaycanın payına düşür. Ötən 15 ildə Azərbaycan həmçinin strateji valyuta ehtiyatlarını dəfələrlə artıraraq 44 milyard dollara çatdırmağa nail olub. Bu faktlar Azərbaycanı kifayət qədər böyük potensiala və gücə malik dövlət kimi səciyyələndirir.

Son 15 ildə reallaşdırılan məqsədyönlü siyasət sayəsində respublikanın iqtisadi müstəqilliyinin təmin olunması, maliyyə imkanlarının genişləndirilməsi Azərbaycanın özünəinam hissini artırır və ölkənin siyasi müstəqilliyini təmin edir. Bu gün Azərbaycan regional və qlobal miqyasda gedən proseslərə təsir göstərmək iqtidarında olan güclü aktora çevrilib. Təsadüfi deyil ki, respublikamız regionda qlobal əhəmiyyətli əksər layihələrin moderatoru rolunda çıxış edir. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Ölkənin qarşısında yeni hədəflər, yeni məqsədlər dayanır. Biz daha güclü Azərbaycan qurmaq üçün daha böyük əzmlə, səylə çalışmalıyıq. Biz gələcəyə baxmalıyıq. Perspektivlə bağlı fikirlərini ifadə edən Prezident İlham Əliyev deyib ki, növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Məqsəd dövlətimizin daha da gücləndirilməsi, xalqın rifah halının daha da yüksəldilməsidir.

## Beynəlxalq Qəzetçilər Cəmiyyətinin baş direktoru Mətbuat Şurasında olub



Beynəlxalq Qəzetçilər Cəmiyyətinin baş direktoru Mehmet Əli Dim iyunun 19-da Azərbaycan Mətbuat Şurasında (MŞ) olub. Şuradan AZƏRTAC-a bildiriblər ki, MŞ sədri, Milli Məclisin deputatı Əflatun Amaşov Parlament Jurnalistləri Birliyinin dəvəti ilə ölkəmizdə səfərdə olan baş direktora Azərbaycan-Türkiyə media əlaqələrinin hazırkı vəziyyəti barədə məlumat verib. Söhbət zamanı, həmçinin mövcud sahədə görüləcək işlərdən danışılıb. Qonağa Mətbuat Şurasının xaricdəki nüfuzlu media təşkilatları ilə əlaqələri barədə də məlumat verilib.

M.Ə.Dim Azərbaycana səfərinin məqsədləri barədə danışıb. Cəmiyyətin kifayət qədər geniş platforma olduğunu deyən sədr əlavə edib ki, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı kimi məsələlərin, mövcud xüsusda Azərbaycanın ədalətli mövqeyinin, həmçinin turizm potensialının təbliği üçün qurumun daha sıx fəaliyyət göstərməsinə ehtiyac var. O, səfərin bu baxımdan əhəmiyyətli olacağına əminliyini vurğulayıb.

## İsrailin TPS xəbər agentliyi AZƏRTAC ilə əməkdaşlıq əlaqələri qurmaqda maraqlıdır

İsrailin milli xəbər agentliyi olan TPS (Tazpit Press Service) dünya informasiya məkanında xüsusi nüfuza malik AZƏRTAC ilə sıx əməkdaşlıq əlaqələri qurmaqda maraqlıdır. Bu sözləri Bolqarıstanın paytaxtı Sofiya şəhərində keçirilən Dünya Xəbər Agentliklərinin VI Konqresi çərçivəsində AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov ilə görüşdə İsrailin TPS xəbər agentliyinin baş icraçı direktoru Amotz Eyal deyib.



Öz növbəsində, Aslan Aslanov Azərbaycan ilə İsrail arasında yaxşı əlaqələrin mövcudluğunu vurğulayaraq, bunun AZƏRTAC ilə TPS arasında əməkdaşlığa da müsbət təsir göstərəcəyinə əminliyini ifadə edib. Diqqətə çatdırılıb ki, TPS agentliyi ilə ikitərəfli əməkdaşlıq qarşılıqlı xəbər mübadiləsinin genişləndirilməsi istiqamətində müsbət addım olacaq.

İsrailin xəbər agentliyinin baş icraçı direktoru bildirib ki, TPS gənc olsa da, əsas məqsədi doğru, obyektiv xəbərlər yaymaqdan ibarətdir. Agentlik siyasət, iqtisadiyyat, təhlükəsizlik, texnologiya, elm, kənd təsərrüfatı və digər sahələr üzrə informasiyalar yayır. Görüşdə agentliklər arasında əməkdaşlıq istiqamətləri, jurnalistlərin təcrübə mübadiləsi və bir çox digər sahələrdə birgə layihələrin reallaşdırılması barədə müzakirələr aparılıb.

# Sosial sahədə atılan inqilabi Sərəncam

## Prezident bir daha Azərbaycan vətəndaşlarının sosial-iqtisadi durumunun yaxşılaşmasında maraqlı olduğunu göstərdi

***Azərbaycan Prezidenti İlham Əliyevin aylıq minimum əməkhaqlarının 180 manatdan 250 manata qaldırılması, eləcə də, büdcələrdən maliyyələşən nazirliklərdə, komitələrdə çalışan işçilərin vəzifə maaşlarının artırılması barədə Sərəncam imzalayıb. Söhbət etdiyimiz müsahiblərimiz, imzalanan Sərəncam sosial sahədə atılan inqilabi Sərəncam adlandırdılar.***

### Millət vəkili Tahir Rzayev: "Prezident İlham Əliyevin sərəncamları əhalinin sosial vəziyyətinin yaxşılaşmasına xidmət edir"



- Haqlı olaraq, mütəxəssislər və analitiklər ölkə Prezidenti İlham Əliyevin, bilavasitə əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması xidmət edən sərəncamlarını inqilabi addım kimi dəyərləndirir və bunu dövlət başçısının verdiyi vədə sədaqətinin ifadəsi kimi qəbul edirlər. Həqiqətən də, 2018-ci ilin Prezident seçkilərindən sonra dövlət başçısı imzaladığı bir çox sərəncamlarla sosial sahədə inqilabi gedişlər etmiş və milyonlarla insanın həyatının yaxşılaşdırılmasına yönəldən qərarları ilə əhalinin bir daha rəğbətini qazanmışdır. Minumum əmək haqlarının, pensiyaların, tələbələrə verilən təqaüdlərin artırılması, problemli kreditlərin həlli, şəhid ailələrinə birdəfəlik ödəmələrin verilməsi və digər mütərəqqi qərarlar buna misal ola bilər. İmzalanmış son sərəncamlar isə, daha xarakterikdir və mütəxəssislərin hesablamalarına görə, 2 milyon 500 mindən çox insanı əhatə edir. Təkcə müəllimlərin əmək haqqının artırılması 950 mindən çox insana şamil olunur və bu pedaqoji sahədə çalışanlara göstərilən böyük diqqət və qayğının ifadəsidir. Bəzi nazirlik və komitələrdə büdcə təşkilatlarda çalışan insanların aylıq əməkhaqlarının artırılması, minumum əməkhaqlarının 180 manatdan 250 manata çatdırılması, bir daha sübut edir ki, dövlət başçısının "Mən xalqın xidmətçisiyəm, bizim vəzifəmiz xalqın rifahının yaxşılaşdırmaqdır" ifadələri əməldə özünü doğruldub və yürüdülən siyasətin sosialyönümlü olması heç kimdə şübhə doğurmur. Azərbaycan gündən-günə inkişaf edir. İqtisadi göstəricilərinə görə, ölkəmiz beynəlxalq aləmdə qəbul edilib, qiymətləndirən bir dövlətdir. Sözsüz ki, inkişafımızı təmin edən Prezidentlə xalqın birliyi və insanların nailiyyətlərimizə yaradıcı təkan verməsidir. Əlbəttə ki, bundan sonra da iqtisadi yüksəlişimiz, bilavasitə vətəndaşlarımızın həyat şəraitinin yaxşılaşdırılmasına yönəldiləcəkdir.

### Millət vəkili Eldəniz Səlimov: "Bu sərəncamlar gerçəkdən tarixi və inqilabi sərəncamlardır "



- Dövlət başçısının iyunun 18-də imzaladığı sərəncamları ilə ilin əvvəlindən elan edilmiş sosial paketin yeni mərhələsi başladıldı. Yeni sərəncamlar 2 milyon vətəndaşı əhatə edir və orta həsabla maaşların 40-50% artırılmasını nəzərdə tutur. Minimum əməkhaqqının 180 manatdan 250 manata qaldırılması çox mühüm addımdır. Xatırladım ki, minimum əməkhaqqının yaşayış minimumundan çox olması yoxsulluq səviyyəsinin azaldılmasına da ciddi təsir edəcəkdir. Digər tərəfdən, dövlət qulluqçularının, müəllimlərin, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışanların, hərbi və hüquq-mühavizə orqanlarında çalışanların və digərlərinin əməkhaqlarının 20-40% artırılması insanların maddi rifah halına mühüm dəstək olacaqdır. Ölkədə inflyasiyanın səviyyəsinin çox aşağı olması (2.3%) artımın real dəyərinin yüksək olmasına imkan yaradacaqdır. Bütövlükdə, prezident sərəncamları ilə əməkhaqlarının artımı, büdcədən əlavə olaraq, 1 milyard manat vəsaitin ayrılmasına səbəb olacaqdır. Dövlət büdcəsin gəlirlərinin indiki artım sürəti və həcmi sosial paketin büdcə vasitəsilə tamamilə maliyyələşməsinə imkan yaradacaqdır. Əmək haqlarının artımı həm də iqtisadi aktivliyi artıracaqdır. Hesab edirəm ki, son sərəncamları ilə ölkə Prezidenti bir daha Azərbaycan vətəndaşlarının sosial-iqtisadi durumunun yaxşılaşmasında maraqlı olduğunu göstərdi. 18 iyun tarixində imzalanmış sərəncamlar Azərbaycan əhalisinin, ölkə vətəndaşlarının önəmli bir təbəqəsinin və hissəsinin sosial-rifah halının yaxşılaşmasına mütləq şəkildə öz müsbət təsirini göstərəcək. Bu sərəncamlar gerçəkdən tarixi və inqilabi sərəncamlardır. Hamısı birbaşa ölkə vətəndaşlarının, Azərbaycan əhalisinin rifahına, həyat şəraitinin və güzəranının yaxşılaşmasına yönəlmiş addımlardır. İnkişaf və tərəqqi edən, çiçəklənən Azərbaycanımıza da, məhz bunlar yaraşır. Ancaq inkişaf, tərəqqi və çiçəklənmə birtərəfli ola bilməz, bunlar, ilk növbədə, həmin ölkənin sütünları, dayaqları sayılan insanların həyatında, yaşayışında özündə göstərməlidir. Azərbaycanda da, məhz belədir. Bunlar qoşa qanad kimi birlikdə addımlayır, həm ölkəmiz, iqtisadiyyatımız inkişaf edir, həm də insanlarımızın həyat şəraiti və güzəranı yaxşılaşır. Hesab edirəm ki, bunlar sonuncu olmayacaq, indiyə qədər olduğu kimi, bundan sonra da bu addımlar və bu artımlar davamlı xarakter daşıyacaq.

### Mətbuat Şurasının sədr müavini, BAMF-nın sədri Umud Rəhimoğlu: "Prezidentimizə minnətdarlıq edirəm"

- Son illər ölkəmizdə sosial sahədə çox böyük islahatlar həyata keçirilir. İlin əvvəlində Qarabağ əlillərinin, şəhid ailələrinin, qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitlərinin yaxşılaşdırılması ilə bağlı Prezident Sərəncam imzaladı. Bunun ardınca əhalinin problemli kreditlərinin həlli ilə əlaqədar addımlar atıldı. 110 min tələbənin təqaüdlərinin artırılması, aylıq minimum əməkhaqlarını 180 manata qaldırılması həyata keçirildi. Prezident İlham Əliyevin humanizm prinsiplərinə söykənən sosialyönümlü siyasəti davam etdirilməkdədir. İyunun 18-də minimum



əməkhaqlarının 180 manatdan 250 manata qaldırılması, büdcədən maliyyələşən nazirlik və komitə əməkdaşlarının vəzifə maaşlarının artırılması Prezident İlham Əliyevin ölkə əhalisinin sosial vəziyyətlərinin daha da yaxşılaşdırılmasında maraqlı olduğunu və hər zaman vətəndaşların yanında olmasına növbəti sübutdur. Bu Sərəncam, həm də Prezidentin humanistliyinin və xeyirxahlığının nəticəsidir. Bir sözlə, cəmiyyətimiz üçün məqbul sayılan və ictimaiyyətin yüksək dəyərləndirdiyi addımlar atılmışdır. Prezident İlham Əliyevin son Sərəncamı, təbii ki, əhalinin maddi rifahının yüksəldilməsinə yönələn bir addımdır. Sərəncamı yüksək qiymətləndirir və buna görə, Prezidentimizə minnətdarlıq edirəm.

**GÜLYANƏ**

---

## "Əmək haqqlarının artırılması növbəti tarixi və inqilabi addımdır"



"Prezident İlham Əliyevin bir gün ərzində 17-yə yaxın sosial istiqamətdə sərəncam imzalaması və bu sənədlərə əsasən ölkəmizdə maaşların və minimum aylıq əmək haqqının artırılması tarixi və inqilabi addımdır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva deyib. O bildirib ki, dövlət başçısı tərəfindən imzalanan sənədlər dövlətimizin və Prezidentimizin Azərbaycan insanına, ölkə vətəndaşına verdiyi yüksək dəyərin əyani göstəricisidir: "Özünüz də şahidsiniz ki, ölkə prezidentinin 16 illik hakimiyyəti dövründə, xüsusilə də 2018-ci ildə keçirilən prezident seçkilərindən ötən 15 ay ərzində ölkəmizdə atılan addımların hər biri tarixi və inqilabi xarakter daşıyır. Azərbaycan bu gün inkişafının, tərəqqisinin və islahatlar prosesinin yeni mərhələsini, yeni dalğasını yaşayır. Bu gün elə bir sahə yoxdur ki, orada inkişaf və islahatlar aparılmasın".

K. Əliyeva söyləyib ki, Azərbaycanda islahatların daha da genişləndirilməsi və dərinləşməsi ölkə əhalisinin sosial müdafiəsinin, rifah halının daha da yaxşılaşdırılmasına bir başa təsir edir: "Çünki bunlar paralel proseslərdir. Xatırladım ki, ölkə prezidenti son çıxışlarında da bildirmişdi ki, islahatlar prosesi davamlı olacaq, minimum əməkhaqqı, maaşlar, pensiyalar artacaq. Belə olan halda ötən gün imzalanan tarixi sərəncamlar həmin sözlərin, bəyanatların konkret əməli addımlar olduğunu bir daha sübuta yetirdi".

## "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyalarının iclasları keçirilib

Mətbuat Şurasının (MŞ) Şikayətlər üzrə Komissiyasının və "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyasının iclasları keçirilib. Şuradan SİA-ya verilən məlumata görə, komissiya sədri, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli gündəlikdə duran məsələlər barədə məlumat verib. Bildirib ki, komissiya ilk olaraq Masallı Rayon Təhsil Şöbəsinin müdiri Tariyel Əkbərovun "7 gun.az" saytına qarşı şikayətini araşdırıb. Müəyyən edib ki, "7 gun.az" saytı "Nazir müavininin cənub bölgəsinə işğüzar səfəri və onun görmək istəmədiyi gerçəklər" adlı məqaləni hazırlayarkən, "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"nın prinsiplərini pozub.

Qeyd edilib ki, anonim mənbələr əsasında hazırlanan yazıda əks edilən faktlar araşdırılmayıb, qarşı tərəfin rəyi öyrənilməyib. Saytın təmsilçisi Cavid Şirəliyev materialda əks edilən faktları təsdiqləyən sənədlərə malik olduğunu desə də, onları özü ilə iclasa gətirməyi unutduğunu bildirib. Şikayətlər Komissiyası məsələnin "Reket jurnalistika"ya qarşı mübarizə üzrə Komissiyada müzakirəsini, təqdim edilməsi nəzərdə tutulan sənədlərin geniş araşdırılmasını məqbul sayıb. Gündəliyə daxil edilən digər məsələlər tərəflərin qarşılıqlı razılığa gəlmələri səbəbindən baxılmamış saxlanılıb.

Daha sonra MŞ-nin "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyalasının iclası keçirilib. Komissiyanın sədri Vüqar Rəhimzadə gündəlikdə duran məsələlər barədə məlumat verib.

Ardınca komissiya üzvləri "Media-Press.org" saytı barədə məsələni müzakirə ediblər. Vüqar Rəhimzadə məlumat verib ki, qeyd edilən sayt üzrə məsələ daha öncə MŞ Şikayətlər Komissiyasının 17 may 2019-cu il tarixli iclasında müzakirə edilib. Amma sayt təmsilçiləri verilən tövsiyələrdən nəticə çıxarmayıblar. Şikayətçi, Ağdaş rayon sakini Məhəmməd Əliyev "Media-Press.org" saytı tərəfindən daha şiddətli təhqirlərə məruz qalması barədə növbəti şikayət ünvanlayıb. Komissiya üzvləri məsələnin müzakirəsi zamanı "Media-Press.org" saytının fəaliyyətində "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"nın prinsiplərinin intensiv şəkildə pozulduğunun, sayt rəhbərliyinin tövsiyə və xəbərdarlıqlardan nəticə çıxarmadığını aşkarlayıblar. "Media-Press.org" saytının adının MŞ-nin "qara siyahı"sına daxil edilməsi barədə rəy verilib.

# Vüqar Rəhimzadə: “Prezidentin təqdim etdiyi yeni sosial paket inqilabi addımların növbəti mərhələsidir”



***İqtisadi tərəqqi güclü sosial siyasətlə tamamlanır. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi gələcəyimizə hesablanmış sosial-iqtisadi inkişaf konsepsiyasının prioritet istiqamətlərindəndir. Dövlətimizin başçısı İlham Əliyev çıxışlarında daim bu fikri bildirir ki, vətəndaş amili həyata keçirilən siyasətin önündə dayanır. İqtisadi göstəricilər təkcə rəqəmlərdə deyil, insanların gündəlik həyatında da öz əksini tapmalıdır. Bu gün Azərbaycanın dünyaya səs salan və yüksək səviyyədə təqdir olunan yeni iqtisadi və sosial inkişaf modeli qarşıdakı illərin aydın mənzərəsini yaradır.***

Təbii ki, bu uğurlara yol açan əsas amil təkmil islahatlar, zamanın tələbinə uyğun yeniləşmə, dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə istinad etməkdir. Sistemli xarakter daşıyan islahatların nəticəsi olaraq, Azərbaycan bu gün beynəlxalq aləmdə sosial dövlət kimi tanınır və nüfuz qazanır. Yoxsulluq kimi sosial bəlanın aradan qaldırılması, işsizlik probleminin həlli istiqamətində atılan addımlar, məşğulluq strategiyasının uğurlu icrası, iqtisadi imkanlar fonunda artan maliyyə imkanlarının mühüm sosial-iqtisadi layihələrə yönəldilməsi, ən əsası, sosial siyasətin əsas tərkib hissəsi olaraq əməkhaqqı və pensiyaların mütəmadi olaraq artırılması bir daha bu reallığa əsas verir ki, ölkəsinin davamlı inkişafı, xalqının yüksək rifahı üçün çalışan ölkə Prezidentinə xalqın dəstəyi, etimadı böyükdür. İlin əvvəlində dövlətimizin başçısı İlham Əliyevin yanında keçirilən iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə səsləndirilən “2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır” əminliyi də məhz cari ilin arxada qalan aylarında atılan addımlara, həyata keçirilən təkmil islahatlara, dövlətimizin başçısının əhalinin rifahına ciddi dəstək olan yeni sosial paketinə əsaslanır”.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə sosial sahədə dərinləşən islahatlara, dövlətimizin başçısı İlham Əliyevin son sərəncamlarına münasibət bildirərkən söyləyib. Vüqar Rəhimzadə qeyd edib ki, ötən illərdən başlanan sosial, xüsusilə əməkhaqqının artırılması ilə bağlı islahatlar gündəngünə dərinləşir: “Belə ki, dövlətimizin başçısı İlham Əliyevin imzaladığı fərman və sərəncamlara uyğun olaraq ötən ilin mart ayından əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin orta hesabla 10 faiz artırılması təmin olundu. Dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərin əməkhaqları 10 faiz artırıldı. Ölkə Prezidentinin sosial siyasət sahəsində cari ilin əvvəlindən atdığı addımlar da davamlılığı ilə diqqət çəkir. Belə ki, Prezidentimizin təqdim etdiyi müvafiq sosial paket çərçivəsində imzaladığı qanunvericilik aktları, xüsusilə minimum əməkhaqqının 130 manatdan 180 manata qaldırılması əhali tərəfindən böyük rəğbətlə qarşılandı. Ümumilikdə cari ilin əvvəllərində həyata keçirilən sosial islahatlar paketi 3 milyona yaxın insanın sosial müdafiəsinin gücləndirilməsi sahəsində inqilabi addım oldu. Bu məqsədlər üçün 1,5 milyard manat vəsait ayrıldı. Prezident İlham Əliyevin bu günlərdə, daha dəqiq desək, iyunun 18-də minimum əməkhaqqının artırılması ilə bağlı imzaladığı Sərəncama uyğun olaraq minimum əməkhaqqının məbləğinin 250 manat müəyyən edilməsi iqtisadi inkişafın fonunda artan maliyyə imkanlarının, ilk növbədə, əhalinin yüksək rifahının təmin olunmasına yönəldiyini bir daha nümayiş etdirdi. Dövlətimizin başçısı 2003-cü ilin oktyabrında xalqın böyük əksəriyyətinin səsi ilə Prezident seçildikdən sonra keçirilən andiçmə mərasimində əməkhaqlarının, pensiyaların ildə ən azı iki dəfə artırılacağı vədini vermişdi. Hər vədini konkret əməli işi ilə təsdiqləyən Prezident “neft kapitalını insan kapitalına çevirək” tezisini də irəli sürərkən bu məqamı xüsusi qeyd edib ki, burada söhbət təkcə elmə, texnologiyalara, təhsilə qoyulan vəsaitdən getmir. Söhbət həm də ondan gedir ki, Azərbaycan vətəndaşına hər yerdə hörmət olmalıdır”.

V.Rəhimzadə diqqətə çatdırıb ki, bu addımlar ölkəmizin davamlı iqtisadi inkişafına söykənir: “Dövlətimizin başçısının təqdim etdiyi yeni sosial paket əhalinin əksər təbəqələrini əhatə edir. Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlər davam etdirilir. Dövlətimizin başçısı İlham Əliyevin imzaladığı yeni sosial paket bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin davamı, silsilə tədbirlərin növbəti mərhələsidir. Bu, həmin kateqoriyadan olan insanların sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını daha da artırmaq məqsədinə xidmət edir”.

Baş redaktor onu da əlavə edib ki, atılan bu kimi addımlar bir daha təsdiqləyir ki, özünü dünyaya sosial dövlət kimi təqdim edən müstəqil Azərbaycan Respublikası öz vətəndaşının yüksək rifahının təminatçısıdır: “Prezidentimizin qərarları bütün dünya üçün sosial inqilab nümunəsidir. Hər zaman vətəndaşının yanında olan, onun qayğısı ilə yaxından maraqlanan, irəli sürdüyü təşəbbüslərin xalq tərəfindən dəstəklənməsinin onda böyük ruh yüksəkliyi yaratdığını bəyan edən dövlətimizin başçısına milyonların sevgisi şəksizdir, etimadı tükənməzdir. Dövlət o zaman güclü, qüdrətli, xalq o zaman xoşbəxt olur ki, onun bu gününü, sabahını düşünən Prezidenti var. Prezident İlham Əliyevin son 15 ildən artıq dövrdə gördüyü işlər, atdığı addımlar onun 2003-cü ildə KİV nümayəndələrinə ilk müsahibəsində dediyi “Əlbəttə, sosial məsələlər, ordu quruculuğu, qaçqın-köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması, əziyyət içində yaşayan insanların, pensiyaçıların həyat səviyyəsinin yaxşılaşdırılması, onların təleyi ilə ciddi məşğul olacağam. Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin” fikirlərinin təsdiqidir.

# Ölkənin sosial həyatında inqilabi addımlar davamlı xarakter daşıyır





Son bir il ərzində bütün sahələrdə olduğu kimi, uğurlu sosial islahatlar da həyata keçirilir. “2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından, başqa illərdən fərqlənən il olacaqdır” deyə bəyan edən Prezident İlham Əliyevin bu sözləri Onun uğurlu sosial islahatlar paketinin nailiyyətləri kimi, əhalinin rifah halının yaxşılaşdırılması sahəsində, cari ilin ötən dövründə, ciddi addımların atılması ilə real təsdiqini tapıb. Bu dövrdə dövlət başçısının imzaladığı fərman və sərəncamların mühüm bir hissəsi, məhz əhalinin sosial müdafiəsinin əhəmiyyətli surətdə gücləndirilməsi, sosial sahə üzrə müasir, şəffaf, çevik, optimal idarəçilik və xidmət mexanizmlərinin formalaşması məramına istiqamətlənib. Bu mühüm məqam Prezident İlham Əliyevin siyasi fəaliyyətində, məhz insan, vətəndaş amilinin, ölkədə sosial rifah və sabitliyin təminatının əsas yer tutduğunu bir daha təsdiq edir.

Bu gün ölkəmizdə iqtisadi sabitləşmənin nəticəsi olaraq, sosial sahədə ciddi dəyişikliklər baş verir. İqtisadi sferada islahatlar prosesi dərinləşdikcə, dövlət vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı üzərinə yeni-yeni öhdəliklər götürür, sosialyönümlü siyasətin miqyasını daha da genişləndirir. Təkcə bu ilin ötən dövründə, Prezident İlham Əliyevin uğurlu sosial islahatlar paketi vətəndaşların rifahına ciddi dəstək olan inqilabi addımların atılmasına imkan verib. Dövlət başçısı İlham Əliyevin fevral ayında imzaladığı 8 Sərəncam və 4 Fərman sıravi vətəndaşın sosial vəziyyətinin yaxşılaşdırılması, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin və başqa kateqoriyadan olan insanların sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb və bu tədbirlər sosial sahədə inqilabi dəyişikliklərin başladığını xarakterizə edir. Prezident İlham Əliyevin sosial islahatlar paketinin uğurlu nəticəsi 8 fevral 2019-cu il tarixli Sərəncamla ölkədə minimum əmək haqqının 2019-cu il martın 1-dən artırılaraq, 180 manata çatdırılması oldu. Minimum əmək haqqının yaşayış minimumuna çatdırılmasına imkan verən bu artım, eyni zamanda, qeyri-rəsmi əmək münasibətlərinin də leqallaşdırılmasına müsbət təsirini göstərir. 19 fevral 2019-cu il tarixli Fərman isə istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərindən ibarət 350-400 min insanın mənafeyinin təmin olunmasına xidmət etməklə, Azərbaycanın sosialyönümlü dövlət siyasətinin əsasında humanizm prinsipləri dayandığının növbəti təsdiqi oldu. Beləliklə, ötən dövr ərzində, Prezident İlham Əliyevin sosial islahatlar paketi 3 milyon vətəndaşın rifahında əhəmiyyətli rol oynayan mühüm addımların atılmasına imkan verdi.

Dövlət başçısının imzaladığı 25 fevral 2019-cu il tarixli Sərəncam isə ölkənin sosial həyatında inqilabi addımların davamlı xarakter aldığını göstərdi. Sərəncamla 600 minədək şəxsə, o cümlədən, 300 min əlilliyi olan şəxsə yönələn sosial müavinətlərin, Prezidentin aylıq təqaüdlərinin aprelin 1-dən orta hesabla 100 faiz artırılması təmin edildi, əlavə olaraq, bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdləri təsis olundu.

Prezident İlham Əliyevin “Minimum aylıq əməkhaqqının artırılması haqqında” 2019-cu il iyunun 18-də imzaladığı Sərəncam respublikamızda əhalinin rifah halının yaxşılaşdırılması sahəsində 2019-cu ilin ilk aylarından atılan inqilabi addımların davamıdır. Sərəncama əsasən, Azərbaycanda minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq, 180 manatdan 250 manata çatdırılacaq. Bununla da, ölkəmizdə minimum əməkhaqqının məbləğinin yaşayış minimumunu (180 manat) 40 faizədək üstələməsi təmin edilir.

Minimum əməkhaqqının artımı birbaşa olaraq, 950 minədək vətəndaşı əhatə edəcək. Onlardan 600 mini dövlət sektorunda, 350 mini özəl sektorda işləyənlərdir. Həmin artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon, 2019-cu il (sentyabr-dekabr ayları) üzrə 245 milyon manat əlavə vəsait ayrılması təmin olunacaq.

Məlumdur ki, sosial paket elan edilərkən, Prezident İlham Əliyev bu paketin davam edəcəyini və artan iqtisadi resursların bir daha əhalinin maddi rifah halının yaxşılaşdırılmasına sərf ediləcəyini bəyan etmişdi. “Minimum aylıq əməkhaqqının artırılması haqqında” Sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq edir və bu istiqamətdə cari il ərzində, artıq ikinci böyük sosial paketin reallaşdırıldığını göstərir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Mübariz Əhmədoğlu: "Tonoyan Azərbaycanın qalib olduğunu etiraf etdi"



**"Ermənistanın müdafiə naziri David Tonoyan bütün sahələrdə aktivdir". Bunu Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib.**

M.Əhmədoğlunun sözlərinə görə, onun son dövrlərdəki aktivliyində məqsədyönlülük xüsusi diqqəti çəkir və gözlənilmədən Azərbaycanın informasiya müharibəsində Ermənistan üzərində qələbə çaldığını etiraf edib: "Onun fikrincə, Azərbaycanın informasiya müharibəsinin təsiri altında Ermənistan ictimaiyyəti müəyyən addımlar atır. Bu bəyanata, ən azı, 2 kontekstdən yanaşmaq lazımdır: "I. Ermənilərdə "məğlubiyyət" və "Azərbaycanın qalib gəlməsi" anlayışları tam ayrı kateqoriyalardır. D.Tonoyana görə Ermənistan sadəcə, uduzmur, Azərbaycan qələbə çalır. Bu, Tonoyanın daxili vəziyyətindəki ciddi narahatlığının göstəricisidir.

II. D.Tonoyan çox gözəl bilir ki, təhlükəsizliyin vacib sahələri ölkənin birinci şəxsinin birbaşa kurasiyasında olan məsələlərdir. Həm hərbi təhlükəsizlik, həm də informasiya təhlükəsizliyi baş nazir N.Paşinyanın kurasiyasındadır. D.Tonoyana görə hərbi təhlükəsizlikdə Ermənistanda hər şey aladır, çünki o sahəyə birbaşa məsul Tonoyandır. Amma informasiya təhlükəsizliyini Paşinyan lazımi şəxsə tapşırmadığı üçün Ermənistanın Azərbaycana qələbə çalmağına imkan verib. Belə olan halda, D.Tonoyanın əsas hədəfi N.Paşinyandır. Tonoyan bu və ya digər formada özünəməxsus metodologiya ilə Paşinyanın zəifliyini üzə çıxarır. Bu deyilənləri aprel döyüşləri kontekstinə gətirəndə, artıq tamam fərqli mənzərə alınır. Çünki hələ indinin özündə də, aprel döyüşləri ilə bağlı Ermənistanın aldığı zərbələr, Ermənistan hərbisinin məruz qaldığı itkilər gizli saxlanılır. İndi informasiya müharibəsində Azərbaycanın qələbəsini gündəliyə gətirməklə, D.Tonoyan həm də fikirləşir ki, komissiyanın açıqladığı faktlar Azərbaycanın qələbəsini daha da möhkəmləndirəcək. Əlavə hansısa məsələlərə görə Tonoyan aprel döyüşlərinin nəticələrinin sonadək aşkarlanmasında maraqlı deyil".

M.Əhmədoğlu onu da bildirib ki, Paşinyanın özündən qat-qat savadlı və hiyləgər Tonoyana qalib gəlməsi ağlabatan görünmür: "Tonoyan birinci şəxslərə tələ qurmaqda təcrübəsiz deyil. 2016-cı il aprel döyüşlərinin əsas təşəbbüskarı D.Tonoyan idi. O zamankı prezident Serj Sarkisyan güclü idi və vəziyyətdən çıxa bildi. Amma görünür, N.Paşinyan vəziyyətdən çıxa bilməyəcək".

**R.HÜSEYNOVA**

# ""Qarabağ kartı" yenidən aktuallaşır"

*"İyunun 20-də Azərbaycan və Ermənistan XİN rəhbərlərinin Vaşinqtonda görüşü keçiriləcək. Təbii ki, bu görüş ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə baş tutacaq". Bunu SİA-ya açıqlamasında millət vəkili Elman Nəsirov deyib.*



Deputatın sözlərinə görə, son dövrdə təmas xəttində Ermənistan tərəfi bir çox təxribatlara əl atıb: "İki hərbçimizin şəhid olması və bundan savayı Ermənistan silahlı qüvvələrinin helikopter avantürası və s. Onlar məqsədlərinə çatmasa da belə hər halda Azərbaycan Silahlı Qüvvələrinə məxsus helikopteri hədəfə almışdılar. Bütün bunlar fonunda eyni zamanda Ermənistanın müdafiə naziri David Tonoyanın Azərbaycan əsgərini qətlə yetirmiş erməni əsgərini mükafatlandırması onların çirkin niyyətindən xəbər verir. Bütün bu sadaladığımız heç şübhəsiz ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli imkanlarını buxovlayan və münaqişənin həlli istiqamətində danışıqlar prosesinin baş tutmamasına istiqamətlənmiş addımlardır. Hər halda bütün bu reallıqlar fonunda danışıqların keçirilməsi ilə bağlı məkan və zaman seçilib. Məsələyə bu məntiqlə yanaşdıqda nikbin olmaq üçün elə ciddi əsaslar yoxdur. Biz dəfələrlə şahidi olmuşuq ki, Ermənistan xüsusilə də belə danışıqlar öncəsi təxribatlara, hərbi insidentlərə imza atır. Nəticədə isə ya danışıqlar baş tutmur, yox əgər danışıqlar baş tutsa da danışıqlar prosesində nəticə etibarilə fundamental, substantiv məsələlər deyil, daha çox ikincidərəcəli məsələlər diqqətdə saxlanılır. Belə olan vəziyyətdə hər dəfə də işğalçı qüvvələrin işğal olunmuş Azərbaycan ərazisindən çıxarılması deyil, atəşkəsin yenidən bərpası kimi məsələlər daha çox müzakirə predmetinə çevrilir. Təbii ki, bu da Ermənistanın dəfələrlə sınaqdan çıxardığı bir taktikadır.

Amma hər halda bu son insident yəni onların helikopter avantürası bu qənaətə gəlməyə əsas verir ki, Ermənistan rəhbərliyi deyəsən olduqca mürəkkəb daxili situasiya ilə üz-üzə qalıb. Paşinyan artıq ona dəstək verən küçənin də etimadını itirməyə başlayıb. Belə olan vəziyyətdə o həm də xəyanətdə ittiham olunur. "Qarabağ klanı", onun rəhbərliyi, keçmiş prezidentlər - Koçaryan və Sarkisyan onu Ermənistana xəyanətdə ittiham edirlər. Bu vəziyyətdə "Qarabağ kartı" yenidən aktuallaşır və iyun ayının 5-də Paşinyan açıq mətnlə Qarabağ klanını qoşunların təmas xəttində və sərhəddə xəyanətə imza atmağa hazırlaşmaqda ittiham etdi. Bütün bunları nəzərə alsaq hesab edirəm ki, son dövrdə təmas xəttində olan gərginlik Ermənistandakı öz daxili gərginliyin ifadəsidir. Bu reallıqlar fonunda şəxsən Ermənistan diplomatiyası münaqişənin həlli ilə bağlı Vaşinqtonda hər hansı bir pozitiv, konstruktiv addıma imza atacağı ehtimalı kifayət qədər aşağı vəziyyətdədir".

**Ceyhun Rasimoğlu**

# Ermənistan hakimiyyəti kadr "təmizlənmə"si ilə məşğuldur



*Ermənistanda Daşınmaz Əmlakın Kadastr Komitəsinin sədr müavini Ashot Musayan vəzifəsindən uzaqlaşdırılıb. SİA Ermənistana məxsus aysor.am saytının məlumatına istinadən xəbər verir ki, bu barədə "Past" qəzetində də yazı dərc olunub.*

Yazıda xüsusilə vurğulanır ki, Musayan artıq 20 ildən çox müddətdir ki, Daşınmaz Əmlakın Kadastr Komitəsində işləyir və köhnə hakimiyyətin nümayəndələrindən biridir. "Past" qəzetində o da qeyd olunur ki, Daşınmaz Əmlakın Kadastr Komitəsinin rəyinə görə bu istefa Ermənistanda inqilabdan sonra baş verən dəyişikliklərin "məntiqinə" uyğun gəlir və hakimiyyət bir növ "təmizlənmə" ilə məşğuldur və tədricən "köhnə rejimin" təcrübəli və ya peşəkar kadrlarını uzaqlaşdırıb, yerinə "mütləq şəkildə özlərindən olanı" yerləşdirməyə üstünlük verir.

# İrəvanda soyğunçuluq baş alıb gedir



*İrəvanda Əməliyyat Axtarış idarəsinin keçmiş rəisi qarət edilib. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, dünən, 18 iyun tarixində İrəvanda Əməliyyat Axtarış idarəsinin keçmiş rəisi, polis general-mayoru Ovannes Tamamyanı qarət ediblər.*

Məlumatda qeyd olunur ki, Tamamyan Kentron polis şöbəsinə müraciət edib və xəbər verib ki, həmin gün naməlum şəxs və ya şəxslər Qriqor Lusavoriç küçəsində onun saxlamış olduğu özünə məxsus 03 NN 003 dövlət nömrə nişanlı BMV markalı avtomobilinin şüşələrini sındıraraq ona məxsus olan çantasını, sənədlərini və digər əşyalarını oğurlayıblar.

Hazırda Kentron polis şöbəsində faktla bağlı materiallar toplanıb-hazırlanır.

Qeyd edək ki, Ovannes Tamamyan uzun illər polisdə yüksək rütbəli vəzifələrdə çalışıb və məhz belə birinə qarşı sözügedən fakt paytaxt İrəvanda soyğunçuluğun adi hala çevrildiyini, baş alıb getdiyini göstərir.

**İnam Hacıyev**

# Ermənilər ümidsizlik girdabında

Mənim Mnasakanyan və Məmmədyarov görüşündən böyük gözləntiərim yoxdur. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu "Sətir arası" proektinin növbəti buraxılışında ekspert Karen Bekaryan deyib.



Məlumatda qeyd olunur ki, analitik Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşündən heç nə gözləmədiyini, ümidsiz olduğunu vurğulayıb. "Nəzərə alsaq ki, Azərbaycan münaqişənin həllini qoşunların Dağlıq Qarabağ ərazisindən çıxarılmasında görür, görüşün müsbət nəticələri Ermənistan üçün inandırıcı görünmür. Daha doğrusu bu görüşdən gözləntilər və bu görüşə ümumiyyətlə yanaşmalar fərqlidir və məhz bu fakt təsdiq edir ki, görüş öz effektivliyi ilə çətin ki, digərlərindən seçilə", -deyə Karen Bekaryan bildirib.

Qeyd edək ki, Azərbaycanın öz əzəli və əbədi torpaqlarını, Dağlıq Qarabağı lazım gəldikdə hərb yolu ilə geri almaq əzmində olması erməniləri münaqişənin həlli istiqamətində ümidsizlik girdabına saldığı ekspertin fikirlərində tam şəkildə əks olunur və bu ümidsizlik bütün Ermənistanı öz ağuşuna almaqdadır.

**İnam Hacıyev**

# Hindistanda anomal istilər 92 nəfərin ölümünə səbəb olub



Hindistanın şimal-şərqindəki Bihar ştatında anomal istilər səbəbindən ölənlərin sayı 92 nəfərə çatıb. AZƏRTAC xəbər verir ki, Sinxua agentliyinin yerli hakimiyyət orqanlarına istinadla yaydığı məlumata görə, son bir neçə həftədir ştatda bu mövsüm üçün xarakterik olmayan isti hava şəraiti hökm sürür. Burada termometrlərin göstəricisi gün ərzində 40 dərəcədən aşağı enmir. İyunun 10-da Nyu-Dehlidə havanın temperaturu Hindistan paytaxtının tarixində ən yüksək göstəriciyə çataraq 50 dərəcəni ötüb.

Anomal istilər və rütubətli hava şəraiti, eyni zamanda, Bihar ştatında kəskin ensefalit xəstəliyinin baş qaldırmasına səbəb olub. Son üç həftə ərzində bu xəstəlik azı 128 uşağın həyatına son qoyub.

# Sədaqət Vəliyeva: “Azərbaycanda sosial sahədə inqilabi addımların növbəti mərhələsi başlanır”

***“Ötən gün ölkə Prezidenti İlham Əliyev minimum aylıq əməkhaqqının 180 manatdan 250 manata çatdırılması, dövlət qulluqçularının aylıq vəzifə maaşlarının 50 faiz, hərbi və hüquq-mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqlarının 40 faiz, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının orta hesabla 20 faiz, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşlarının orta hesabla 40 faiz artırılması haqqında bir sıra sərəncamlar imzaladı. Bu isə Azərbaycanda sosial sahədə atılan inqilabi addımların növbəti mərhələsinin başlandığına işarə idi”. Bunu “SƏS”ə açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.***

S.Vəliyeva bildirib ki, Prezident İlham Əliyevin ölkə əhalisinin sosial rifahının yüksəldilməsinə dair həyata keçirdiyi işlərin miqyası gündən-günə genişlənir: “Təsadüfi deyildir ki, ötən il seçkilərdə qələbə qazandıqdan sonra Prezident İlham Əliyevin imzaladığı ilk Fərman şəhid vərəsələrinə birdəfəlik ödəmənin verilməsi ilə bağlı olub. Dövlətimizin başçısının ölkənin sosial həyatında inqilabi addımların davamlı xarakter aldığını göstərən qərarları ilə, ötən bir il ərzində, minimum pensiya məbləği, minimum əməkhaqqı orta hesabla 40 faiz artırıldı. Prezident İlham Əliyevin 2019-cu il 25 fevral tarixli Sərəncamı ilə isə 600 minədək şəxsə, o cümlədən, 300 min əlilliyi olan şəxsə yönələn sosial müavinətlər, təqaüdlər orta hesabla 100 faiz artırıldı, əlavə olaraq, bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdləri təsis olundu. Həmçinin,



məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün aylıq müavinət 50 faiz artırıldı ki, bu da minlərlə məcburi köçkünün rifah halının yüksəldilməsinə xidmət edir. Bu il 110 minədək tələbənin də təqaüdlərinin ciddi şəkildə artırılması təmin olundu. Azərbaycan Prezidentinin humanizm prinsiplərinə söykənən sosialyönümlü siyasətini, daim hər bir vətəndaşının yanında olduğunu təsdiqləyən digər bir addım isə 800 mindən çox insanın problemli kredit məsələsini aradan qaldıran Fərman oldu. Bütün bunlar Azərbaycanda həyata keçirilən böyük sosial islahatlar paketinin birinci mərhələsinə aid idi. Ötən gün imzalanmış Sərəncam isə ikinci mərhələnin başlanğıcı oldu”.

“Azərbaycada əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlər bu gün də davam etdirilir. Məhz Prezident İlham Əliyevin imzaladığı sosial paket bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin davamı və silsilə tədbirlərin növbəti mərhələsidir. Ötən gün imzalanmış sərəncamlar insanların sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını daha da artırmaq məqsədinə xidmət edir” deyən S.Vəliyeva əlavə edib ki, sosial sahədə atılan bu mütərəqqi addımlar Azərbaycan vətəndaşının maraqlarının dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayandığını bir daha təsdiqləyir.

S.Vəliyeva diqqətə çatdırıb ki, atılan addımlar Prezident İlham Əliyevin güclü sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir.

***Rəfiqə HÜSEYNOVA***

# “Son sərəncamlar əhalinin rifahının yaxşılaşdırılması istiqamətində atılan inqilabi addımların davamıdır”

Azərbaycan Prezidenti İlham Əliyevin “Minimum aylıq əməkhaqqının artırılması haqqında” və müxtəlif sahələr üzrə əməkhaqlarının artırılması ilə bağlı imzaladığı sərəncamlar respublikamızda əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində 2019-cu ilin elə ilk aylarından atılan inqilabi addımların davamıdır. Sərəncama əsasən Azərbaycanda minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılıb. Bununla da Azərbaycanda minimum əməkhaqqı MDB ölkələri arasında alıcılıq qabiliyyətinə görə ikinci yerdə qərarlaşdı.

Bu fikirləri AZƏRTAC-a Milli Məclisin deputatı Aydın Hüseynov deyib. Deputat bildirib ki, bu addım Prezident İlham Əliyevin Azərbaycan xalqına olan diqqət və qayğısının bariz nümunəsidir. 2019-cu ildə Prezident tərəfindən xalqın rifahının yaxşılaşdırılması istiqamətində çox mühüm addımlar atılıb. Cari ildə minimum əməkhaqqı, pensiyalar, tələbələrə verilən təqaüdlərin artırılması, problemli kreditlərin həlli və digər sosial məsələlərlə bağlı Prezident tərəfindən mühüm fərman və sərəncamlar imzalanıb. Lakin dövlət başçısı bu islahatların davamlı olacağını bəyan edirdi və ötən gün bu islahatların davamı olaraq daha bir inqilabi ad-



dım atıldı.

Milli Məclisin deputatı, həmçinin əlavə edib ki, minimum əməkhaqqının artımı birbaşa olaraq 950 minədək vətəndaşı əhatə edəcək. Həmin insanlardan 600 mini dövlət sektorunda, 350 mini özəl sektorda işləyənlərdir. Bu artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon, 2019-cu il (sentyabr-dekabr ayları) üzrə 245 milyon manat əlavə vəsait ayrılması təmin olunacaq. Bundan başqa, sərəncamla minimum əməkhaqqının məbləğinin 250 manata çatdırılması dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşları üzrə orta əməkhaqqının da orta hesabla 40 faiz artmaqla 265 manatdan 367 manata çatmasına imkan verir.

# Tahir Mirkişili: Prezident “Azərbaycanda dövlət siyasətinin mərkəzində insan amili dayanır” tezisini bir daha təsdiq etdi

***2018-ildə Prezident İlham Əliyev tərəfindən aparılan islahatlar iqtisadiyyatda şəffaflığın səviyyəsini artırdı, iqtisadi inkişafın yeni mənbələrinin tapılmasına imkan yaratdı, qeyri-neft sektorunun sürətli inkişafını təmin etdi. Təbii ki, bütün bu nəticələr özünü həm də dövlət büdcəsinin gəlirlərinin yüksəlməsində, ixracın və Azərbaycanın strateji valyuta ehtiyatlarının həcminin artmasında göstərdi.***



2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulan vəsaitlər və 2019-cu ilin əvvəlindən başlayaraq artan büdcə gəlirləri hesabına Prezident İlham Əliyevin sərəncamları ilə geniş sosial paket elan edildi. Bu sosial paket 3 milyondan çox insanı əhatə edərək minimum əməkhaqqının, pensiya təminatlarının, təqaüdlərin, sosial müavinətlərin artmasına, problemli kreditlərin vətəndaşların xeyrinə həll olunmasına səbəb oldu.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Tahir Mirkişili söyləyib. Deputat qeyd edib ki, sosial paket elan edilərkən Prezident İlham Əliyev bu paketin davam edəcəyini və artan iqtisadi resursların bir daha əhalinin maddi rifah halının yaxşılaşdırılmasına sərf ediləcəyini bəyan etmişdi. 2019-cu ilin sürətli iqtisadi artım ili olacağı da əvvəlcədən planlaşdırılmışdı və ilin birinci rübünün iqtisadi yekunları bunu bir daha sübut etdi. Belə bir şəraitdə sosial addımların atılmasının iqtisadi əsasları da təmin edilməkdədir.

Dövlətimizin başçısının sərəncamları ilə ilin əvvəlindən elan edilmiş sosial paketin yeni mərhələsinin başlanıldığını deyən deputat əlavə edib ki, yeni sərəncamlar 2 milyon vətəndaşı əhatə edir və orta hesabla maaşların 40-50 faiz artırılmasını nəzərdə tutur. Minimum əməkhaqqının 180 manatdan 250 manata qaldırılması çox mühüm addımdır. Minimum əməkhaqqının yaşayış minimumundan çox olması yoxsulluq səviyyəsinin azaldılmasına da ciddi təsir edəcək. Digər tərəfdən, dövlət qulluqçularının, müəllimlərin, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışanların, hərbi və hüquq-mühafizə orqanlarında çalışanların əməkhaqlarının 20-40 faiz artırılması insanların maddi rifah halına mühüm dəstək olacaq. Ölkədə inflyasiyanın səviyyəsinin çox aşağı olması (2,3 faiz) artımın real dəyərinin yüksək olmasına imkan yaradacaq.

Milli Məclisin deputatı vurğulayıb ki, bütövlükdə Prezidentin sərəncamları ilə əməkhaqlarının artımı büdcədən əlavə olaraq 1 milyard manat vəsaitin ayrılmasına səbəb olacaq. Dövlət büdcəsi gəlirlərinin indiki artım sürəti və həcmi sosial paketin büdcə vasitəsilə tamamilə maliyyələşməsinə imkan yaradacaq. Əməkhaqlarının artımı həm də iqtisadi fəallığı artıracaq. Beləliklə, dövlətimizin başçısı “Azərbaycanda dövlət siyasətinin mərkəzində insan amili dayanır” tezisini bir daha təsdiq etdi.

# Hadi Rəcəbli: “İmzalanan hər bir sərəncam Azərbaycan vətəndaşının rifahının yaxşılaşmasına yönəlib”



Prezident İlham Əliyev çıxışlarında dəfələrlə 2019-cu ilin əhalinin sosial müdafiəsinin güclənməsi ili olacağını bildirib. Dövlətimizin başçısının cari ilin əvvəlindən verdiyi qərarlar əhalinin rifahının daha da yaxşılaşmasını təmin edir. İyunun 18-də imzalanmış sərəncamlar da məhz bu məqsədə xidmət edir. Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli deyib. Komitə sədri qeyd edib ki, Azərbaycan Prezidentinin imzaladığı Sərəncamla minimum əməkhaqqı 180 manatdan 250 manata çatdırıldı. Bu da 950 minədək vətəndaşı əhatə edəcək. Həmin insanların 600 mini dövlət qurumlarında çalışırsa, 350 mini özəl sektorda fəaliyyət göstərir. Bununla yanaşı, iyunun 18-də imzalanan sərəncamlarla dövlət qulluqçularının, hərbi qulluqçuların, hüquq-mühafizə orqanı əməkdaşlarının və digər xüsusi rütbəli şəxslərin, müəllimlərin, habelə dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan işçilərin əməkhaqları nəzərəçarpacaq dərəcədə artırıldı. Bu sərəncamlar Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin inqilabi xarakter daşıdığını, dövlətin hər bir vətəndaşının yanında olduğunu bir daha əyani şəkildə göstərir. Beləliklə, imzalanan hər bir sərəncam Azərbaycan vətəndaşının rifahının yaxşılaşmasına yönəlib. Bu gün ölkəmizin güclü iqtisadi imkanlara malik olduğunu söyləyən Hadi Rəcəbli deyib: “Azərbaycanın iqtisadi qüdrəti, ixrac potensialı ilbəil artır, qeyri-neft sektoru inkişaf edir. Ölkəmizin təşəbbüsü ilə irimiqyaslı qlobal layihələr uğurla icra edilir. Görülən bütün bu işlərin nəticəsində isə hər bir Azərbaycan vətəndaşının rifah halının yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ciddi addımlar atılır”.

Bu cür sosial inqilab xarakterli qərarların davamlı xarakter aldığını bildirən Hadi Rəcəbli qeyd edib ki, ilin sonunadək vaxtaşırı belə qərarlar veriləcək. Nəticədə vətəndaşlarımızın güzəranı daha da yaxşılaşacaq.

# İsa Qəmbər ağıl dəryası olduğunu göstərməyə çalışacaq

## *Müsavatın növbəti qurultayında Arif Hacılı əski mövqeyinə qaytarılacaq*



***Əksər müxalifət partiyalarında qarşıdurmaların gərginləşməsi fonunda istefalar baş verməkdədir. Bu cür hallar daha çox Müsavat, AXCP və qondarma qurum olan "Milli Şura" daxilində daha çox müşahidə olunmaqdadır. Bu isə, onu deməyə əsas verir ki, üzdəniraq partiya sədrləri səhv və yanlış siyasət aparmaqla, özləri ilə yanaşı, rəhbərlik etdikləri təşkilatları da məhvə sürükləyirlər.***

Müsavat Partiyasında proseslər əvvəlcədən proqnozlaşdırılan istiqamətdə inkişaf etməkdədir və bu qurumun narazı üzvləri bir-bir Müsavat sıralarından uzaqlaşmaqdadırlar. Əslində, daha geniş və çoxsaylı istefaların əsası, başqanlıq postunda Arif Hacılının İsa Qəmbəri əvəz etməsindən sonra qoyulub. 2014-cü ildə keçirilən Müsavatın qurultayında başqanlığa namizəd olmuş şəxslərdən Qubad İbadoğlu başqanlıq seçkisində saxtakarlığa və pozuntulara etiraz edərək, partiyadan istefa verdi. Ardınca isə, Müsavat partiyasının bəzi strukturlarının buraxılması prosesi başlanıldı. Nəticədə, partiyanın onsuz da zəif olan dayaqları tamamilə çökdü.

Q.İbadoğlunu yaratdığı "ADR" hərəkatının sıraları, demək olar ki, əsasən, müsavatçılardan formalaşmışdı. A.Hacılı, ciddi-cəhdlə Müsavatın dağılmasının qarşısını almağa cəhd göstərsə də, istək və arzuları iflasa uğramışdır. Hətta A.Hacılı və qardaşı Mustafa Hacıbəyli sosial şəbəkələrdə, çıxış edərək, "ADR"in yaradılmasının gülünc və mənasız olduğunu, orada təmsil olunanların öz məsləklərinə və əqidələrinə xəyanət etdiklərini bildirmişlər. Müsavatdan ayrılaraq özünə "Ağ partiya" adlı təşkilat yaradan Tural Abbaslı isə, qardaşların ittihamlarını əsassız adlandırb. Nizamnamədə qeyd edilib ki, Partiyanın üzvü istənilən hərəkat və təşkilatın sıralarına qoşula, lakin yalnız bir partiyanın, Müsavat partiyasının üzvü ola bilər".

### Qubad İbadoğlunun arzuları reallaşamadı

Müsavatın rüsvayçılıla nəticələnən qurultayı A.Hacılının yeni dönəm üçün başqanlıq iddialarının reallaşmasına imkan versə də, partiyanın inkişafına olan ümidləri alt-üst etmiş oldu. Daha doğrusu, 2014-cü il qurultayı Müsavatın bir daha normal fəaliyyət göstərə bilməyəcəyini ortaya qoydu. Müsavatın parçalanmasının ideya müəllifləri olan T.Abbaslı və Q.İbadoğlu da arzu və istəklərini reallaşdıra bilmədilər. "ADR" hədəflərinə nail ola bilmədiyi kimi, "Ağ partiya" da nəticə əldə edə bilmədi. Hətta Q.İbadoğlu idarəetməni bacarmadığından, 6 aya yaxın hərəkatdan ayrılaraq, biznes fəaliyyəti ilə məşğul oldu. Amma Türkiyədə yaşayn Müsavat başqanının keçmiş müavini Vurğun Əyyub Bakıya qayıdıb, siyasi bəyanatlarla çıxış edərək, "ADR"in yığıncaqlarında fəal şəkildə iştirak etdikdən sonra Q.İbadoğlu gözlənilmədən Bakıda peyda oldu. Yenə də, heç nə dəyişmədi. "ADR" zəif və fəaliyyətsiz qurum olduğunu ardıcıl istefaları ilə təsdiqləmiş oldu. T.Abbaslı da Müsavatdan ayrıldıqdan sonra, özünə "Ağ partiya" yartdıb, fəal siyasətə qatıldığını bəyan etsə də, arzu və istəkləri uğursuzluğa düçar oldu. Aktiv fəaliyyətdə olduğunu nümayiş etdirmək üçün T.Abbaslı qurumlara qatılsa da, iddialı və hikkəli partiya sədrlərinin təhqirləri ilə üzləşdi. Qondarma qurum olan, "Azərbaycan Xalq Hərəkatın"da "AMDP" sədri İskəndər Həmidovun təhqirlərinə məruz qaldı. Hətta müdaxilə edən olmasa idi, İ.Həmidov T.Abbasılını döyüb xətəxanalıq edəcəkdi.

Bütün bu olayalar və yeni partiyaların yaradılmasına baxmayaraq, müxalif düşərgədə uzağa getmək və uğur qazanmaq mümkün deyil. Çünki müxalifət düşərgəsində hökm sürən qüsurlar, səhv və yanlış siyasət partiyaların və onaların sədrlərinin uğur əldə etmələrinə imkan vermir. Parçalanmalar və qopmalar da, məhz yanlış siyasətin bəhrəsidir.

### Arif Hacılı arxivə göndərilir

Bütün müxalif partiyalarda olduğu ki, Müsavatdan da istefaların başlıca səbəbi xalqa və dövlətə zidd siyasət aparılmasıdır. A.Hacılının başqan seçilməsindən sonra Müsavat daxilindən qopmalar daha geniş xarakter daşıyıb. Vəziyyətin daha da ağırlaşması proqnozlaşdırılır. Çünki A.Hacılının xaricdən ayrılan maliyyə vəsitlərini mənimsədiyi, qardaşı Vaqif Hacıbəyli, "Əhrar" partiyasının sədri olmasına baxmayaraq, Müsavatın kollegial orqanlarında iştirak etdiyi, sıravi partiya üzvlərinin təklif və ideyalarını rədd etdiyi və digər köklü problemlər, Müsavatı məhvə sürükləməklə yanaşı, A.Hacılının siyasətdən arxivə yola salınmasının başlıca səbəblərindəndir. Amma Yadigar Sadıqlı, Osman Kazımov kimi partiya sözçüləri, göz görəsi, Müsavatın dağılması ilə barışmaq istəmirlər. Bu səbəbdən də, İ.Qəmbəri yenidən başqanlığa gətirməklə, mövcud ağrılı problrmləri həll etməyə ümid bəsləyirlər. Hətta Y.Sadıqlı bəyan edib ki, İ.Qəmbər A.Hacılıya güzəştə getməsə, o zaman özü başqanlığa namizədliyini irəli sürəcək. Məlumata görə, Y.Sadıqlının namizədliyini Müsavat partiyası başqanının keçmiş müavinləri Elman Fəttah, Tofiq Yaqublu, o cümlədən, əksər divan üzvləri dəstəkləyiblər. Məhz bundan sonra Müsavatın indiki başqanı A. Hacılı ilə Y. Sadıqlı arasında gərgin qarşıdurma yaranıb və tərəflər bir-birini gözdən salmağa və sıradan çıxartmağa çalışırlar.

A.Hacıl-Y.Sadıqlı arasında baş verən qarşıdurma fonunda İ.Qəmbər başqanlığa hazırlaşır. Artıq bu barədə, rayon təşkilatlarına da ciddi tapşırıqlar verilib. Müsavatdakı məlumatlı mənbənin dediyinə görə, nəzərdə tutulan Müsavatın növbəti qurultayında İ.Qəmbər başqan seçiləcəyi təqdirdə, partiyadan istefa verərək, özlərinə "ADR" hərəkatı yaradan Q. İbadoğlu, Səxavət Əlisoy, V.Əyyub və digərləri yenidən Müsavata qayıdacaqlar. Hətta Q.İbadoğlu partiyanın icra aparatının rəhbəri, S.Əlisoy isə başqan müavini təyin oluncaqlar.

*İ.ƏLİYEV*

# Yaxud Əli Kərimli - xəyanətin reallığı

AXCP deyəndə, elə zənn edirsən ki, "böyük" bir partiyadır. Ancaq o pariyaya Əli Kərimli kimi satqın, moşennik, Vətən xaini və əxlaqsız rəhbərlik edirsə, hansı "böyük" partiyadan danışmaq olar? Bu gün iki cüt, bir tək olan partiyada adam var ki, o da Ə.Kərimlinin aftafadaşıyanlarıdı. Kimsəyə də sirr deyil ki, AXCP-dən gedənlərin əsas baiskarı elə Əli Kərimlidir. Çünki yaxşı bilir ki, sədri olduğu 19 ildə partiyaya heç bir uğur gətirməyib və onun qazana bilmədiyi uğurlarının kökündə avtoritar idarəçiliyi, partiyadaşlarına xəyanətləri, o cümlədən, şəxsi mənfəət qazanması amilləri dayanır. Onun "uğuru" AXCP daxilində qruplaşmaların yaranmasıdır. Məsələn, rayonlara öz yaxın adamlarını, qohum-əqrabasını sədr qoyur, partiyada vəzifələr verir və qazandığı qrantları onların arasında bölür. Yerdə qalanlar isə, onlara baxıb barmaqlarını sorurlar. Bütün bunlar Ə.Kərimlinin "uğurlarıdır"...



### Əli Kərimlinin "facebook" zombiləri...

Bəli, bu, o Ə.Kərimlidir ki, "facebook"da öz zombilərini yerlşdirməklə, orada şəxsi nəzarəti altında söyüş qrupları yaradır. Kim Ə.Kərimlidən nəsə deyilsə, söyüləcək, təhqir olunacaq, üstəlik, uzun illər ərzində canını orada fəda etməsinə baxmayaraq, işlənmiş salfet kimi bayıra atılacaq. Bax, Ə.Kərimlinin əsas "siyasi baxışı" bu cür "demokratiya" üzərində qurulub. Bunu da "uğur" hesab edir. Hələ bu harasıdır, AXCP sədri hər hansı bir məsələ barədə "ağıllı", "kamallı" status yazırsa, həmin status da dərhal "Azadlıq" qəzetində dərc olunursa, siz gəlin-görün "facebook"da onu tərifləyən zobmilər necə də "bəhbəh" edib, şıllaq atırlar. İndi bunu sosial şəbəkələr vasitəsi ilə edir. Ə.Kərimlini özlərinə sədr deyil, "kral" hesab edən "facebook" nökərləri, daha dorğrusu, aftafadaşıyanları məlumdur ki, öz yallarına qatmağa bir parça haram Kərimli çörəyi də qazanırlar.

Bu ərəfələrdə AXCP-dən partiyadaxili avtoritar idarəçiliyə etiraz edən və nəticədə, oradan qovulan funksioner Ağaşirin Tanrıverdioğlu bu yerdə yaxşı bir fikir bildirib. Sitat: "Kim azad söz yazırsa, parolu oğurlanır. Məmməd İbrahimin parol sındırmaqda olan səriştəsinə bələdəm. Əli bəyin bu işlər üzrə "müşavir"i odur. Ə.Kərimli AXCP-nin yox, bir qrup "zombi"nin kralıdır. Özü istədiyi qaydada partiyanı idarə edir. "Zombi"lər də ona saxta alqışlar yağdırırlar.

### Əli Kərimlinin iyrənc sifəti...

Bu neçə illərdir ki, AXCP sədrinin o iyrənc sifətini hər dəfə görəndə, əsəbləşirəm, daha doğrusu, allergiya oluram. Sifəti lap mat... sifətinə oxşayır. Belə sifət sahibindən ancaq əxlaqsızlıq gözləmək olar. Bu yerdə "MBH" lideri Lalə Şövkətin sözlərinin xatırlatmaq yerinə düşər. Belə ki, 2003-cü ildə "Azadlıq" qəzetində Lalə Şövkət haqqında hədsiz dərəcədə təhqiramiz bir yazı dərc olunmuşdu. Lalə Şövkətin cavabı isə, yazılanlardan da sərt oldu. O, "Azərbaycan siyasətində belə bir mənəviyyatsızlıq görməmişdim. Adam düşmən olanda, gərək kişi kimi düşmən olsun. Ə.Kərimlidən çox alçaq səviyyə gördüm" demişdi. Əslində, Ə.Kərimlinin siması da deyilənləri təsdiqləyir. Lalə Şövkət demişkən, onun "facebook.om"da alçaq-alçaq danışması məcbur edir ki, Ə.Kərimlinin kimliyinə bir də qayıdasan.

Bir sözlə, xəyanəti və cinayəti, ümumiyyətlə, fəaliyyətinin başlıca prinsipi kimi qəbul edən AXCP sədri Ə.Kərimli öz "ənənəsini" yenə də davam etdir. Misal üçün, bir faktı dəyərli oxucularımızın diqqətinə çatdırıram. Belə ki, Ə.Kərimli Sevinc Osmanqızının kanalında guya qrantyeyən olmadığını iddia etmək istədi və bir gün sonra onun trollarına rəhbərlik edən İ.Hüseyn sözügedən postu paylaşdı. Nəticədə, dövlətçilik maraqlarından çıxış edən sosial şəbəkə fəalları AXCP sədrinin yalan danışdığını, özünü reklam etdiyini və s. sübutları ortaya çıxardılar və...

Yeri gəlmişkən, biz bu sıralamaya Ə.Kərimlinin mühacir biznesindən və digər qaranlıq sahələrdən əldə etdiyi gəlirləri də əlavə etsək, daha çoxmilyonlu rəqəmlərin şahidlərinə çevrilmiş olarıq. Bu baxımdan, 100% əminliklə nəticəyə gəlmək mümkündür ki, AXCP sədri və onun trolları dövlət maraqlarını, milli maraqları anti-Azərbaycan siyasi dairələrə və həmin dairələrə pul buraxan erməni lobbisinə görə məmnuniyyətlə satırlar. Bu gün Ə.Kərimli və onun aftafadaşıyanları ilə bağlı etdiklərinə "dövlətə xəyanət" ifadəsindən başqa heç bir ad vermək olmaz. Belələri mütləq cəzalarını çəkməlidirlər. Bunu xalq tələb edir.

Nəticə isə göz qabağındadır. Ə.Kərimlinin boş ambisiyaları uğurunda qanunsuz fəaliyyətlərini göz altına alan şəxslər, indi dəmir barmaqlıqlar arxasındadır, ölkə daxilindəki azsaylı partiya üzvləri də səfil-sərgərdan vəziyyətdə hələ də Ə.Kərimlinin boş vədlərini dinləyirlər. Bu həqiqəti görənlər, artıq Ə.Kərimlidən üz döndərirlər. Vay o günə ki, Ə.Kərimlinin ətrafındakı manqurtlaşmış 3-5 nəfər də ayıla. Bax onda Ə.Kərimlinin qaçmaq üçün lüks maşına və qorunmaq üçün cangüdənə daha çox ehtiyacı olacaq. Onda isə cinayət kürsüsündə oturub, etdiyi satqınlığa və cinayətlərinə görə xalq qalşısında cavab verəcək...

*Rəfiqə HÜSEYNOVA*

# Yəməndə 2015-ci ildən bəri 90 mindən çox insan həlak olub



Yəməndə silahlı münaqişə nəticəsində 2015-ci ildən indiyədək 91 min 600 insan həlak olub. Associated Press informasiya agentliyi xəbər verir ki, bu barədə məlumat Silahlı Münaqişələrin Nəticələrinin Qiymətləndirilməsi üzrə Layihənin məruzəsində əksini tapıb. Məruzəyə əsasən, husi üsyançılarına qarşı döyüşən Səudiyyə Ərəbistanının rəhbərlik etdiyi ərəb koalisiyası birbaşa hücum nəticəsində həlak olan 11700 nəfər dinc sakindən 8 mininin ölümünə görə məsuliyyət daşıyır.



# Yaxın Şərq: dörd istiqamətdə geosiyasi gərginlik

### Dəyişən situasiya: dialoq arxa planda

Yaxın Şərqdə geosiyasi proseslər növbəti gərginlik mərhələsinə qədəm qoyur. Əvvəllər də analoji keçidlər baş verib. Lakin bu dəfə mənzərəni daha riskli və gərgin edən düşündürücü faktorlar xeyli qabarıq şəkildə özünü göstərir. Və bunun özəl cəhətlərindən biri böyük dövlətlərin mübarizəsinin artıq daha açıq və kəskin şəkildə həmin regiona təsir etməyə başlaması ilə əlaqəlidir. Burada ilk olaraq ABŞ-İran qarşıdurmasını vurğulamaq doğru olardı. Digər gərginlik xəttini ABŞ-Türkiyə münasibətləri təşkil edir. Bunların fövqündə isə ABŞ-Rusiya və ABŞ-Çin rəqabəti dayanır.

Bu qarşıdurmaların hər birinin öz məzmunu vardır. Onlar haradasa kəsişir, digər yerlərdə isə kəskin fərqlənirlər. Lakin yekun olaraq Yaxın Şərqin geosiyasi mənzərəsinə mənfi təsir edirlər. Vəziyyəti daha mürəkkəb edən əsas səbəb də bununla bağlıdır. Vurğulanan gərginlik qaynaqlarının hər biri üzərində ayrıca dayanaq.

Donald Tramp İrana qarşı yeni addımlar atmaqla bütövlükdə təhlükəli meylləri xeyli gücləndirmişdi. Buna qarşılıq Tehran nüvə sazişinin bir sıra əsas bəndlərindən imtina edə biləcəyini bəyan etməklə gərginliyi daha da alovlandırdı. Dərhal dünyanın üç böyük geosiyasi gücü - Rusiya, Çin və Avropa bu gedişata reaksiya verdilər. Rusiya İranı dəstəklədi, İngiltərə, Almaniya və Fransa isə Tehrana xəbərdarlıq etdilər. Bununla da Yaxın Şərq məsələsinə münasibətdə qlobal geosiyasətdə növbəti çat meydana gəldi. Hazırda tərəflər öz mövqelərində qalırlar. İran isə xəbərdarlıq müddətinin bitməsini gözləyir. Avropa ölkələrinin reaksiyasından belə duyulur ki, onlar heç bir addım atmayacaqlar, əksinə, Tehrandan daha yumşaq mövqe gözləyirlər.

Amerika isə İrana qarşı daha sərt mövqe tutmaqda davam edir. Vaşinqton regiona əlavə hərbi qüvvə göndərməklə bərabər, diplomatiya, kəşfiyyat istiqamətlərində də fəallığını artırıb. Hətta Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) İranla bağlı xüsusi iclas keçirdiyi haqqında informasiyalar yayılıb. İran rəhbərliyi də kifayət qədər əzm nümayiş etdirir. Tehran hesab edir ki, Amerika İranla savaşa girməyəcək. Xarici işlər naziri Məhəmməd Cavad Zərifin Moskvaya səfərinə bu kontekstdə dəstək axtarışı cəhdi kimi baxanlar vardır.

Bunlardan belə nəticə çıxara bilərik ki, ABŞ-la İran arasında gərginlik hələ davam edəcək. Bu baxımdan Suriyada bu iki gücün toqquşmasının daha mənfi təsir edə biləcəyi istisna deyil. Son olaraq Deyr-əz-Zorda yerli əhalinin ABŞ-ın dəstəklədiyi kürd qruplaşmalarına qarşı ayağa qalxdığı haqqında məlumatlar yayılır. Bu hərəkatı ekspertlər ABŞ və müttəfiqlərinə qarşı üsyan kimi xarakterizə edirlər. Məsələ ondan ibarətdir ki, İran məhz bu məntəqədən keçən marşrutla dənizə çıxmağa çalışır. Amerikalılar isə onu bağlayıblar. Deməli, həmin ərazidə onların qarşıdurmasının kəskinləşməsini gözləmək olar. Eyni vəziyyət İdlib istiqamətində yaranır. Orada Rusiya, İran və Bəşər Əsəd gücləri müxalif qruplara qarşı hücuma keçiblər. Hətta bir şəhərin azad edildiyindən bəhs edirlər. Bu da bölgədə Rusiya-İran-Türkiyə-Suriya bağlantısında yeni problemlərin meydana gəldiyinə dəlalət edir.

Deyilənlərin fonunda Türkiyəyə qarşı regionda ABŞ-ın rəhbərliyi ilə bir qrup dövlətin enerji şantajlarının başlaması da diqqəti çəkir. Buraya Misir, İsrail, Yunanıstan, Cənubi Kipr Respublikası və bir sıra digər dövlətlər daxildir. Hətta ABŞ regiona hərbi gəmi göndərib. Onun məqsədi Aralıq dənizinin şərq bölgəsində karbohidrogen ehtiyatlarının işlənilməsinə mane olmaqdan ibarətdir. Paralel olaraq yunan tərəfinə eyni fəaliyyət üçün əlavə şans verməyə çalışırlar. Nəticədə, kifayət qədər gərgin vəziyyət yaranıb. Türk tərəfi heç bir halda geri çəkilməyəcəyini bəyan edib.

### İttihamlardan müharibəyə: məsafə qısalır

Yunanlar isə BMT Baş katibinə şikayət ediblər. Cənubi Kiprin lideri Nikos Anastasiadis Baş katib Antonio Quterreşə məktub yazaraq, Türkiyənin “ikinci işğala” başladığından dəm vurub. Ankara və Şimali Kipr Respublikasının rəhbərliyi isə qarşı tərəfi yalan danışmaqda, qeyri-səmimilikdə ittiham edib. Çünki türklər bir neçə ay əvvəl ortaq çalışmalarla bağlı müraciət etmişdi. Lakin nədənsə yunanlar və arxalarında duran qüvvələr ancaq yunan tərəfin enerji mənbələrinin axtarışına ixtiyarının olduğu fikrindədirlər.

Bununla İran-ABŞ qarşıdurmasına ABŞ-Türkiyə gərginliyi də əlavə olunmaqdadır. Bu məsələnin bir ucu da Suriyanın şimalındakı vəziyyətə gedib çıxır. Çünki Türkiyə oradakı terror qruplarını zərərsizləşdirmək fikrindədir. Amerika isə açıqca terrorçuları dəstəkləyir. Deməli, Suriyada ABŞ-İran və ABŞ-Türkiyə gərginliyi haradasa birləşir.

Bu iki istiqamətin fonunda təbii ki, Amerika-Rusiya və ABŞ-Çin münasibətlərinin regiona ciddi təsirindən danışmağın əsası vardır. Vaşinqtonla Moskvanın Yaxın Şərq uğrunda gərgin mübarizə apardıqları sirr deyil. İndiki situasiyada bu, daha təhlükəli məzmun kəsb edir. Belə ki, hər iki böyük dövlət güc nümayişini artırırlar. O cümlədən Suriyada qarşıdurmalar daha kəskin xarakter alır. Məsələ İsrail-Fələstin və Amerika-Çin münasibətləri baxımından daha da ağırlaşıb. İsrailin hərbi güc tətbiq etməsi və Qolan təpələrindən sonra Qəzzanın da işğalının istisna olunmaması bunun əlamətlərindəndir.

Bu bağlılıqda D.Trampın Çin mallarına əlavə vergi qoyması növbəti gərginlik mənbəyi kimi görünür. Amerika vergini 10 faizdən 25 faizə yüksəldib. Bununla dünya maliyyə bazarında dalğalanmalar artıb. Həmin prosesin müxtəlif regionlardakı geosiyasi-iqtisadi vəziyyətə təsir edəcəyini ekspertlər inkar etmirlər. Daha riskli məqam ondan ibarətdir ki, böyük güclər bir-birinə əlavə problemlər yaratmaq üçün mövcud münaqişələri daha da alovlandıra və ya yeni münaqişə mənbələri yarada bilərlər. Burada bir qrup dövlətlərin qarşıdurması ssenarisi də istisna deyil. Enerji ilə zəngin Yaxın Şərqin həmin prosesdən kənarda qala biləcəyini təsəvvür etmək çətindir.

Beləliklə, bir neçə istiqamətdən Yaxın Şərqdə geosiyasi mənzərəyə mənfi təsir edən dalğalar yüksəlməkdədir. Region yeni risklərə doğru gedir. Bu prosesin qeyri-müəyyənliyi ümumi mənzərəni olduqca həssas edir. Yəni kiçik bir hadisə belə böyük parlayışa səbəb ola bilər. Xüsusilə İranla Amerika arasında ziddiyyətin kəskinləşməsi birbaşa silahlı toqquşmalara apara bilər. Unudulmamalıdır ki, Amerika İran İslam İnqilabının Keşikçiləri Korpusunu (Sepah), İran isə ABŞ-ın Avropadakı qoşunlarını terror təşkilatı kimi tanıyıblar. Bu, bəri başdan hər iki tərəfin silah tətbiq etmək üçün özlərinə hüquqi baza hazırlaması əlamətidir.

Digər tərəfdən, Suriyada və başqa region dövlətlərində radikal qrupların sayı kifayət qədərdir. Onlardan yerlərdə vəziyyəti gərginləşdirməyə cəhdlər ola bilər. Əslində, Amerikanın həmin qrupların bir hissəsini silah-sursatla təmin etməsi və faktiki olaraq ordu halına gətirməsi çox təhlükəli ssenariləri gündəmə gətirir. Ekspertlər hesab edirlər ki, bu reallıq regionu daha geniş silahlı toqquşmalara sürükləyə bilər.

Vurğulanan faktlar göstərir ki, Yaxın Şərq növbəti geosiyasi gərginlik mərhələsinə keçir və bu gərginliyin qonşu regionlara təsiri istisna edilmir. O cümlədən Qafqazda terror dalğası yaratmaq planlarının istisna olmadığını demək gərəkdir. Bunun fonunda Cənubi Qafqazda erməni aqressiyasının daha da artması ehtimalı mövcuddur. Ermənistan rəhbərliyi üçün bu, növbəti fürsətdir. Çünki qarışıq vəziyyətdə ermənilər təcavüzkarlıq planlarını işə sala bilirlər.

Ən əsası isə, onlar Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli və sülh yolu ilə həlli yolunda süni əngəllər yaradırlar. Bu baxımdan Yaxın Şərqdə geosiyasi vəziyyətin kəskinləşməsi və burada böyük dövlətlərin qarşıdurmasının yeni səviyyəyə yüksəlməsi bütün dünya üçün yeni təhdidlər meydana gətirir. Bütün bəşəriyyət bu təhlükəli tendensiyaya qarşı durmalıdır.

***Newtimes.az***

## Amerikalı milyarder Oksford Universitetinin hesabına 188 milyon dollar köçürüb

Amerikanın “Blackstone” investisiya kompaniyasının rəhbəri milyarder Stiv Şvartsman xeyriyyəçilik məqsədilə Oksford Universitetinin hesabına 150 milyon funt-sterlinq (188 milyon dollar) vəsait köçürüb.

AZƏRTAC “The Times” qəzetinə istinadla xəbər verir ki, bu, Böyük Britaniya ali təhsil müəssisələri tarixində ən böyük ianədir.

Pul vəsaiti süni intellekt və onun hazırlanması ilə bağlı müxtəlif sosial problemləri öyrənən yeni humanitar elmlər institutunun maliyyələşməsinə yönələcək. Bundan başqa, milyarderin şərəfinə onun adını daşıyacaq xüsusi humanitar fənlər mərkəzinin qurulması planlaşdırılır. Bura kitabxana, 500 nəfər tamaşaçı tutumuna malik konsert zalı, 250 yerlik təhsil otağı, televiziya və radio yayımı mərkəzi, həmçinin süni intellekt sahəsində etika institutu daxil olacaq.

“Blackstone” investisiya korporasiyasının qurucusu 72 yaşlı Stiv Şvartsmanın varidatı 12,3 milyard dollar həcmində qiymətləndirilir. Milyarder bundan öncə də müxtəlif təhsil müəssisələrinin inkişafına ianələr köçürüb: Nyu-Yorkun ictimai kitabxanasına 100 milyon dollar, Massaçusets Texnologiya İnstitutuna 350 milyon dollar, Yale Universitetinə isə 150 milyon dollar vəsait ayırıb.

# Arif Hacılı və Əli Kərimli anti-Azərbaycan şəbəkənin təmsilçiləri kimi çıxış edir

## *Ölkəmizin nüfuzunu zədələməyə çalışan dağıdıcı müxalifət bununla satqın və xəyanətkar olduğunu nümayiş etdirir*



***Azərbaycanın demokratik dövlət quruculuğunu özünün inkişaf modeli kimi qəbul etməsi, zamanın nəbzinə və müasir tələblərə uyğun olaraq, tərəqqisini sürətləndirən islahatlar həyata keçirməsi səmərəli nəticə verir və qüdrətini hər keçən il daha da artırır. Yerləşdiyi regionun lideri olan və qazandığı yeni nailiyyətlərlə bu statusunu davamlı şəkildə möhkəmləndirən Azərbaycan artıq beynəlxalq hüququn güclü, nüfuzlu müstəqil subyekti kimi çıxış edir. Demokratik dəyərlərin kifayət qədər möhkəm özüllər üzərində bərqərar olaraq, inkişaf etdiyi Azərbaycan, sosial-iqtisadi sahədə də, dinamik tərəqqi dövrünü yaşayır. Siyasi, iqtisadi, sosial, mədəni və digər sahələr üzrə yaşanan inkişafın biri-birini tamamlaması isə, öz növbəsində, ölkəmizi daha güclü və beynəlxalq miqyasda daha böyük nüfuz sahibi olan bir dövlətə çevirir.***

### Azərbaycan sosial-iqtisadi sahədə dinamik tərəqqi dövrünü yaşayır

Ölkəmizin əldə etdiyi nailiyyətlər, qazandığı uğurlar, beynəlxalq hüquq müstəvisində istənilən məsələ üzrə milli maraqlarını qətiyyətlə müdafiə etməsi və bunun üçün lazımi gücün və qüdrətin sahibi olmasını həzm edə bilməyənlərin sayı da az deyil. Bu, ilk növbədə, artıq uzun illərdir Azərbaycan əleyhinə fəaliyyət göstərən antiazərbaycançı şəbəkəyə, bu şəbəkənin əsas nümayəndələrindən olan Ermənistana və bəzi dövlətlərə aiddir. O da, məlum həqiqətdir ki, sözügedən şəbəkənin sıraları genişdir və Azərbaycanın daxilində də təmsilçiləri və əlaltıları mövcuddur. Hüquq müdafiəçisi, qeyri-hökumət təşkilatı, siyasi partiya adı altında fəaliyyət göstərən belə buyuruq qulları, əməlləri ilə istənilən an Azərbaycana və xalqa xəyanət etməyə hazır olduqlarını dəfələrlə sübuta yetiriblər. Onlar öz mənafeləri, maddi maraqları naminə lazım gəldikdə, bir an belə tərəddüd etmədən xəyanətlərə yol veriblər.

Azərbaycanda 1990-92-ci illərdə mövcud olan anarxiyanın və xaosun yaranmasında radikal müxalifətin indi ən maraqlı tərəflərdən biri kimi çıxış etməsinin səbəbləri hamıya yaxşı məlum olan həqiqətdir. Belə ki, ölkəmizdə demokratiyanın inkişaf etdiyi, cəmiyyətin maddi rifah halının, davamlı olaraq yüksəldiyi bir şəraitdə, radikal düşərgənin təmsilçiləri yenidən hakimiyyətə gəlmək şanslarının sıfıra bərabər olduğunu yaxşı başa düşürlər. Hətta utopik olsa da, özlərini bugünkü Azərbaycan reallıqlarında hakimiyyətə alternativ ola biləcək bir qüvvə kimi təsəvvür etməkdə çətinlik çəkirlər. Məhz bu səbəbdən, radikal müxalifəti maraqlandıran əsas məsələ ölkəmizdə yenə qanunsuzluğun hökm sürməsi və insanların ən elementar hüquqlarının belə pozulduğu bir şəraitin yaranmasıdır. Çünki radikal müxalifət, 1990-cı illərin əvvəllərində olduğu kimi, belə bir şəraitdə yenidən insanların kortəbii inam dalğasında hakimiyyətə gələ biləcəyinə dair xəyallar qurur və bu xəyalın reallaşması üçün Azərbaycanın ən qatı əleyhdarları ilə, hətta ermənilərlə belə işbirliyi qurmaqdan çəkinmir. Bu gün kimsə unutmayıb ki, zamanında Müsavat partiyasının sabiq başqanı İsa Qəmbər Ermənistan Ümummilli Hərəkatı ilə qarşılıqlı əməkdaşlıq haqqında bəyannamə imzalamışdı, yaxud AXCP sədri Əli Kərimlinin xeyir-duası ilə AXCP üzvü Ruslan Bəşirlinin Gürcüstanda ermənilərlə partiyası adından əməkdaşlığa dair razılıq əldə etməsi bunun real təsdiqidir.

### Radikal müxaliflərin öz mənafeləri naminə Azərbaycan xalqının faciələrlə üzləşməsinə hazır olmalarına dair konkret misallar çəkmək mümkündür

Çox da uzaq olmayan yaxın keçmişə nəzər saldıqda, radikal müxalifət təmsilçilərinin öz mənafeləri naminə Azərbaycan xalqının faciələrlə üzləşməsinə hazır olmalarına dair konkret misallar çəkmək mümkündür. Ayaz Mütəllibovun hakimiyyətdən devrilməsi üçün AXC və Müsavatın Azərbaycan ərazilərini hərraca qoyması, ermənilər tərəfindən işğal olunmasına şərait yaratması da bunun faktiki sübutu kimi çıxış edir. Bu, həmin müxalifətdir ki, 20 Yanvar faciəsi və Xocalı Soyqırımı kimi qanlı hadisələrdən istifadə edərək silah gücünə hakimiyyətə yiyələnmək istiqamətində addımlar atmaqdan çəkinmədi.

Radikal müxalifət yenidən Azərbaycanda növbəti faciələrin yaşanmasını, ölkəni ötən əsrin 90-cı illərinin anarxiya və xaos dövrünə sürüklənməsini istəyir. Bunun üçün, qeyd edildiyi kimi, Azərbaycan əleyhinə çıxan ən müxtəlif xarici qüvvələrlə böyük məmnuniyyətlə işbirliyinə gedir. Məqsəd Azərbaycanda qarşıdurma yaranmasına, qardaş qanı tökülməsinə nail olmaqla, hakimiyyətə gəlmək, həmçinin, qulluqlarında durduğu xarici ağalarından ölkədə anarxiya yaradacaqlarına dair vədlər verib, daha çox miqdarda pul qoparmaqdır. Azərbaycan sürətli demokratik inkişafına görə fərqlənən ölkələr sırasında yer alır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, ölkəmizdə 54 siyasi partiya qeydiyyatdan keçib, 4500-ə yaxın mətbuat orqanı uçota götürülüb. 2600-dən artıq ictimai təşkilat fəaliyyət göstərir. Müxalifət, onun radikal qanadı, xüsusən də, AXCP-Müsavat partiyası və onlara bağlı mətbu orqanlar durmadan ölkədə "demokratiyanın boğulduğunu" iddia edir. Lakin belə fikirlərinə görə hakimiyyət tərəfindən müxalifətə heç bir irad tutulmur. Əksinə, onlara məxsus qəzetlərin dövlət nəşriyyatına olan borcları ölkə Prezidenti tərəfindən silinir. Hətta həmin qəzetlərə Prezident, eləcə də, dövlət tərəfindən yaradılan müvafiq qurum səviyyəsində maliyyə yardımları edilir. Amma nədənsə, bütün bunları açıq etiraf etməkdən radikal müxalifət çəkinir və heç dilinə belə gətirmək istəmir. Azərbaycanda özəl biznesə, xarici investisiyaya böyük himayə göstərilir. Sahibkarlara dövlət hesabına güzəştli kreditlər verilir və fermerlərə hər il milyonlarla dollar həcmində subsidiyalar ayrılır. Ölkəmizdə heç bir sosial ziddiyyət yoxdur, xalq və hakimiyyət arasında birlik isə, get-gedə daha da möhkəmlənir.

### Zaman radikal müxalifətin nə dərəcədə yanıldığını sübuta yetirdi

Reallığa söykənməyən analogiyalar aparmaq ifrat radikal müxalifətin, belə demək mümkünsə, köhnə şakəridir. Hələ 2004-cü ildə Gürcüstanda, 2005-ci ildə Ukrayna və Qırğızıstanda yaşanan məlum hadisələrdən sonra da dağıdıcı müxalifət analoji hadisələrin Azərbaycanda təkrarlanacağını iddia edir, hətta narıncı rəngə bürünürdü. Lakin ən böyük hakim olan zaman radikal müxalifətin nə dərəcədə yanıldığını, sadəcə, cəfəng fikirlər müəllifi olduğunu real formada sübuta yetirdi.

Ölkə müxalifətinin radikal qanadı, onu da yaxşı bilməlidir ki, istər Azərbaycan cəmiyyəti, istərsə onun sabahı olan gənclik sərsəm fikirlərlə çıxış edən radikal avantüristlərə uyan deyil. Əksinə, xalq indi Azərbaycanı sürətlə inkişaf yoluna çıxaran Ümummilli Lider Heydər Əliyev ideyaları, bu ideyaları yaşadan və həyata keçirən Prezident İlham Əliyevin ətrafında daha sıx səfərbər olur. Dövlət başçısının həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində, Azərbaycanda insanların maddi rifah halı davamlı olaraq yüksəlir və ölkəmiz insan inkişafı indeksinə görə MDB məkanında liderlik edir. Qeyd edilən fakt BMT İnkişaf Proqramının 2010-cu il İnsan İnkişafı Hesabatında da aydın şəkildə öz əksini tapıb. Burada açıq vurğulanır ki, insan inkişafı indeksinin orta illik tempinə görə Azərbaycan keçmiş Sovet İttifaqı məkanındakı ölkələr arasında son 10 il ərzində aparıcı dövlət olub.

Bu gün Azərbaycan öz inkişafı ilə bütün dünyanı heyran qoyur, artıq beynəlxalq miqyasda inkişafın Azərbaycan modelindən bəhs olunur, onun səciyyəvi xüsusiyyətləri öyrənilir. Ölkəmizin dayanıqlı və davamlı inkişafını təmin edən bu model müasir Azərbaycan reallıqlarını yaradaraq, son 17 il ərzində, onu modern və dinamik tərəqqi parametrlərinə görə nümunəvi ölkəyə çevirib. İqtisadi, siyasi və digər mühüm parametrlər üzrə qüdrətli dövlətə çevrilən Azərbaycan qazanılan müvəffəqiyyətlərin miqyasını davamlı şəkildə genişləndirir və yeni-yeni uğurlara imza atır, xalqımızın sosial-rifah halı daim yüksələn xətt üzrə inkişaf edir. Nəhəng quruculuq işləri, saysız-hesabsız tikililər, səhiyyə ocaqları, təhsil müəssisələri, məcburi köçkünlər, şəhid ailələri, əlillər, veteranlar üçün yaşayış binaları, qəsəbələr, yollar, körpülər ölkəmizin iqtisadi yüksəlişinin və xalqımızın sosial vəziyyətinin yüksək səviyyəsinin bariz nümunəsidir. Ölkəmizdə insanların həyat səviyyəsi gündən-günə yüksəlir. Əməkhaqları, pensiyalar və digər sosial ödəmələr artırılıb, bütün sosial təbəqələr dövlətin diqqət və qayğısı ilə əhatə olunubdur. Bununla yanaşı, ölkəmizdə neqativ hallarla, o cümlədən, bütün ölkələrdə az və ya çox dərəcədə mövcud olan rüşvətxorluq, korrupsiya, inhisarçılıq, süründürməçiliklə mübarizə gücləndirilir və artıq əhali bunun effektini gündəlik həyatında hiss edir.

### Müxalifətin cəhdləri uğursuzluğa düçar olur

Güclü makroiqtisadi sabitlik, qlobal maliyyə böhranı şəraitində belə, böyük infrastruktur layihələrin həyata keçirilməsi, regionların sürətli inkişafına xidmət edən dövlət proqramlarının uğurla reallaşdırılması, zamanın tələblərinə cavab verən islahatların aparılması və bu qəbildən olan digər amillər ölkə vətəndaşlarının yaşayış durumuna müsbət təsir göstərir. Hüquqi, sivil, demokratik inkişaf göstəricilərinə malik Azərbaycan regionda və beynəlxalq müstəvidə getgedə güclənən dövlət halına gəlir. Hazırda Cənubi Qafqaz iqtisadiyyatının 75 faizi, məhz ölkəmizə məxsusdur.

Sosial dayaqlarını itirmiş radikal müxalifət başçıları, onların azsaylı tərəfdarları Azərbaycanda sabitliyin pozulmasına çalışır və bu yöndə müxtəlif cəhdlər edirlər. Belə cəhdlərdən biri kimi, radikal müxalifət yenidən özünün köhnə, lakin heç bir effekt verməyən mitinq taktikasını işə salmağa çalışır. Bu da, növbəti dəfə göstərir ki, müxalifətin radikal qanadının əməllərində, təfəkküründə heç də dəyişiklik baş verməyib. A.Hacılı, İ.Qəmbər, Ə.Kərimli və onlar kimi digər radikal müxalifət liderləri yenə də ötən əsrin 90-cı illərinin əvvəllərindəki fəaliyyətlərini davam etdirməkdədirlər. Nəticə isə, onu göstərir ki, xalqın, birmənalı tərzdə rədd etdiyi bu şəxslər, bütövlükdə, radikal müxalifət hakimiyyət və mənsəb naminə hər yola baş vurmağa, hətta Azərbaycanın ən qatı əleyhdarları ilə işbirliyinə getməyə hazırdırlar. Elə bu səbəbdəndir ki, formal mövcudluqlarını çoxdan xaricdəki bəzi bədxah qüvvələrin qəpik-quruşlarından asılı etmiş radikal müxalifət təmsilçiləri antiazərbaycançı mənafelərindən əl çəkmək istəmirlər. Xalqın nifrətinə tuş gəldikləri üçün isə, bütün ümidlərini xaricdə olan və müstəqil Azərbaycanın varlığına qarşı çıxan qüvvələrə bağlayıblar. Təbii ki, Azərbaycanın hüquq-mühafizə orqanları, ölkəmizdə xaos yaratmaq istəyən bu qüvvələrin qarşısını almalı, ölkəmizin milli maraqlarını satanları və xaricdəki ağaları ilə işbirliyi quranları cəzalandırmalıdırlar.

**Rövşən Rəsulov**

# SSRİ-də erkən evliliyin gender təhlili

***XIX əsrin ortalarından başlayaraq, Çar Rusiyasının müxtəlif yerlərində feodal sistemini tədricən ortadan qaldıran kapitalist münasibətləri formalaşmağa başlamışdır. Bakıda neft sənayesinin meydana çıxması ilə, Azərbaycanda və ümumiyyətlə, Cənubi Qafqazda kapitalizm münasibətlərinin təməli qoyuldu. Bakı, XIX əsrin axırlarından başlayaraq, feodalizmdən kapitalizmə keçid etməklə, yeni ictimai münasibətlərin mərkəzinə çevrildi. Artıq sənayenin inkişaf etdirilməsi zərurətə çevrildi. Bunun üçün əhalinin savadlanması, peşəkarlığın artırılması və qadınların ucuz işçi qüvvəsi kimi ev-ailə işlərindən sənayeyə cəlb olunmasına tələbat artırdı. Bu məsələlərin həllinin uzunmüddətli inkişafa buraxılması mümkün deyildi. Çünki Çar Rusiyası ərazisində yeni kapitalist münasibətlərinin sürətlə inkişaf etməsi, feodal sistemin üzərində bərqərar olan Çar Rusiyasının tezliklə çökməsinə, onun ərazisində bütün resursların ələ keçirilməsinə və yeni bazarların meydana çıxmasına yönəlmişdi.***

Qərb hökumətləri Çar Rusiyasında öz strateji hədəflərinə daha tez nail olmaq üçün, "milli azadlıqla" yanaşı, "qadın azadlığı" ideyasından da istifadə etdilər. Bu ideyaların yayılması və gercəkləşməsi isə, marksist feministlərin üzərinə vəzifə kimi qoyuldu. Bu, asan vəzifə deyildi. Çünki feodal rejimin və monarxiyanın qoruyucuları olan varlı mülkədarlara və xalqı aldadan ruhani zümrəsinə qalib gəlmək və əhalini, xüsusilə, qadını onların istismarından xilas etmək lazım idi.

1917-ci il oktyabr inqilabından sonra Rusiyada hakimiyyətə gələn bolşevik hökuməti marksizmin feminist nəzəriyyəsinə əsaslanaraq, patriarxal cəmiyyəti ortadan qaldırmaq məqsədini qarşıya məqsəd kimi qoydu. F.Engels yazırdı ki, ailə təsərrüfatı sosializmdə ictimai əməyin ayrılmaz hissəsi olmalı, uşaqların tərbiyəsi ictimai səviyyədə həyata keçirilməli, qadınları istismar edən ailə qurumu ortadan qalxmalı və cəmiyyət istismarın olmayacağı kommunizmə doğru sürətlə addımlamalıdır. Buna görə də, bolşeviklər, ənənəvi ailənin keçmişin qalığı olduğunu irəli sürərək, ona qarşı mübarizəyə başladılar. Bunun üçün qadınlar, ailənin mülkiyyətindən çıxarılıb, ictimai mülkiyyətə çevrilməli idilər. Bu proseslər, Rusiya ərazisində daha ifrat şəkildə həyata keçirildi.

1917-ci il Oktyabr inqilabından sonra "ev əməyinin inqilabı dəyişməsi" qanunu, sonralar bütün SSRİ ərazisində, yəni Azərbaycan SSR-də də tətbiq olunmuşdu. Bu qanun, feodalizmin natural təsərrüfat sisteminin ortadan qaldırılmasına və onun, sosializmin kollektiv sənaye və aqrar təsərrüfat sistemi ilə əvəz olunmasına şərait yaratdı. Bu sistemdə formalaşan böyük (mürəkkəb) ailə modeli yeni sistemə keçidlə bağlı olaraq iflas etdi. Çünki sürətlə irəliləyən bu proseslərin qarşısını almaq istəyənlər, antisovet elementləri kimi ortadan qaldırıldı. Həmçinin, 1917-ci ildə qəbul edilən "vətəndaş nikahı, uşaqlar və vətəndaş vəziyyəti aktlarının qeydə alınması" barədə qanuna əsasən, nikah və boşanmalar kilsənin əlindən alınaraq, dünyəvi məhkəmələrə verildi, qadın və kişi arasında bərabərlik tanındı, qadınlar cəmiyyətin bütün sahələrində sərbəst fəaliyyət göstərmək imkanları əldə etdilər.

Çar Rusiyası ərazisində, həmçinin, Azərbaycan ərazisində qadınların kütləvi şəkildə savadsız olması, ictimai həyatdan uzaq olması və feodal sistemin ənənələri ilə yaşaması, islahatların aparılmasını çətinləşdirirdi. Buna görə də, solçu feministlər Armant, A.Kollontay, A.Samoylova, K.Setkin və digərləri bu sahədə güclü təbliğat-təşviqat işlərinə cəlb olundular. Rusiyada qadınların sosial-iqtisadi həyata və yeni ideoloji sistemə cəlb olunması üçün, fəal qadınlardan ibarət feminist təşkilatlar ("qadın şuraları" və "qadın şöbələri") yaradıldı.

Dünyada ilk dəfə Rusiyada 1920-ci ildə abortlar qanunla leqallaşdırıldı və tibb müəssisələrində pulsuz abortlar həyata keçirildi. Halbuki əvvəlki qanunlara görə, abort edən analar 3 il, həkimlər 6 il cinayət məsuliyyətinə cəlb olunurdular. 1924-cü ildə Leninqrad şəhərində abort edən qadınların sayı 60,4%-ə qədər artdı. Nikah yaşı hər iki cins üçün 18 yaş elan edildi (1917-ci ildə qadınlar üçün 16, kişilər üçün 18 elan edilmişdi).

1920-ci ildə boşanmalar qanunla leqallaşdırıldı. Boşanmaq istəyən evli cütlüklərdən biri artıq məhkəməyə deyil, poçt ilə nikah qurumuna məktub göndərməklə, öz istəyinə rahatlıqla nail olurdu. Həmin dövrdə bağlanan nikahların orta davamlılığı 8 ay idi. Qadınların nikahda deyil, nikahdankənar uşaq dünyaya gətirmələri bolşevik hökuməti tərəfindən dəstəklənirdi. Belə uşaqlar dövlət- kommunal qurumlarında böyüdülüb, tərbiyə edilirdi. 1923-cü ildə SSRİ-də doğulan uşaqların 50%-nin nikahdankənar olduğu bildirilirdi.

Rusiyada tətbiq olunan gender siyasəti "totalitar androginiya", yəni "cinssiz sovet insanı" modelinə uyğunlaşdırılırdı. Bu model, təhsildə və əmək sahələrində cinsə əsaslanmayan sistemin ortaya çıxmasına şərait yaratdı. Qadınların arasında tikintidə və dəmir yolunda fəhlələrin, ictimai nəqliyyat sürücülərinin, traktorçuların və pilotların sayı artdı. Marksist feministlər "seksual inqilab" layihəsini gerçəkləşdirmək üçün müəyyən tədbirlər həyata keçirdilər. Xalq komissarlarının 1 yanvar 1918-ci il qərarında bildirilirdi ki, 17-30 yaşarası bütün (5 uşağı olanlar istisna olunmaqla) zəhmətkeşlərin intim istifadəsinə verilirvə buna etiraz edən ərlər ər statusundan məhrumedilirdi. Çoxkişilik qanunla təsbit olunurdu. Doğulan uşaqlarkörpələr evinəverilir və 17 yaşına qədər oradatəlim-tərbiyə olunurdular. 1920-ci ildə "azad sevgi büroları" yaradıldı və onlar, "proletar seks" üçün müraciət edən kişiləri qadınla təmin edirdilər. Qadınların imtina etmək hüquqları yox idi. KİV-də təbliğ edilirdi ki, kişilər öz qadınlarını dostlarına, qadınlar isə,öz ərlərini rəfiqələrinə təklif etsinlər. Rusiyada bu duruma etiraz cəhdləri ortadan qaldırılırdı. Buna görə də, bir çox ailələr öz evlərini tərk edərək, daha təhlükəsiz yerlərəsığınırdılar.

Rauf Məmmədov yazır: "1921-ci ildən başlayaraq, 12-13 nəfərin bir yerdə ailə şəklində yaşadığı kommuna-ailə modelləri, vətəndaş nikahları, homoseksual nikahlar və üçlü nikahlar yaradılırdı. Kommunal mənzil layihələri də bununla bağlı idi. 1925-ci ildə Moskvada "Həyaya son!" , "Ailəyə son!", "Nikaha son" şüarları altında nudistlər cəmiyyəti yaradılır və onlar ictimai yerlərdə və çimərliklərdə özlərini nümayiş etdirirdilər. Onlar paltarı burjua əlaməti və qeyri-təbii bir hal kimi qələmə verirdilər.

Bolşeviklərin Rusiyada həyata keçirdikləri kütləvi "seksual inqilab" eksperimentləri, Avropa tarixində belə müşahidə olunmamışdı. 20-30-cu illlərdə Rusiyada ifrat yoxsulluq və aclıqdan -kütləvi ölümlərin artması, cinayətlərin pik həddə çatması, kannibalizm elementlərinin müşahidə olunması ilə yanaşı, seksual ifratınbaşalıbgetməsicəmiyyətitamamiləiflas həddinə çatdırılmışdır. Bolşeviklər (V.Lenin, L.Trotski, Karl Radek, feministlərdən Aleksandra Kollantay, İnessaArmand,Roza Zemlyaçkı, Fenı Drabkina, Mariya Şoyxet və s.) cəmiyyəti bu yolla manipulyasiya edirdilər.

Bu gün, Azərbaycanda olan milli ailə modeli,18 yaş nikah müqaviləsinəvəyumşaqpatriarxalənənəyəəsaslanannuklear-monoqam ailə modelidir. Ailə, öz formasından asılı olmayaraq, cəmiyyətin xarakterini özündə əks etdirir və öz konservativliyi ilə dəyişən cəmiyyətin xarakterinə təsir göstərir.

XX əsrin 30-cu illərinədək Azərbaycanda feodal sistemdən sosialist sistemə (bəzi tədqiqatçılara görə, dövlət kapitalizminə) keçid mərhələsində və sonrakı dövrün təsiri altında ənənəvi Azərbaycan ailəsi həm struktur, həm də mahiyyət baxımından dəyişmişdir.

Lakin ənənəvi ailənin dəyərləri modernist-sosialist inkişafa öz təsirini göstərərək, Azərbaycan SSR ərazisində ənənələrlə moderniz-minmüxtəlifsəviyyəli sintezini təşkil edənyenibir ailə fenomeninin ortaya çıxmasına səbəb olmuşdur. Bu sintezi, səviyyəsinə görə, üç kateqoriyaya bölmək olar:

1. Həm ənənənin, həm də modernləşmənin orta səviyyəsini təmsil edən sinkretik ailələr (Gəncə, Sumqayıt və qismən Bakı kimi şəhərlərdə yaşayan qismən orta patriarxal ailələr).

2. Ənənəninzəif və modernləşməningüclü olduğusubkültür ailələr (Bakıda yaşayan və gender bərabərliyinin daha çox müşahidəolunduğu "rusdilli" azərbaycanlı və qarışıq ailələr).

3. Ənənənin güclü və modernləşmənin zəif olduğu müasir ənənəviailələr (bölgələrvəkəndyerlərin-dəolanqismənsərtpatriarxal ailələr)."

R.Məmmədovun fikrincə, nuklear-monoqam ailə modeli, bütün dövrlərdə mövcud olan müxtəlif ailə formalarının (ailə icması, böyük ailə, patronimiya) strukturunu təşkil edən ilkin hissəcik qismində iştirak edir. Cism atomlardan təşkil olunduğu kimi, müxtəlif böyük ailə formaları da ata+ana=övlad(lar) formulundan ibarət kiçik nuklear (nüvə)-monoqam ailələrdən təşkil olunurlar. Bu baxımdan, nuklear-monoqam ailəni ilkin ailə forması hesab etmək olar. Ailənin və nikahın digər formaları isə, sonrakı dövrlərin sosial-siyasi hadisələri, iqtisadi-coğrafi xüsusiyyətləri və digər amillərlə əlaqədar olaraq meydana çıxmışdı:

1. Nuklear-monoqam ailə-maddi təminatın və fiziki təhlükəsizliyin təmin olunduğu sosial mühitdə mövcuddur.

2. Nuklear-monoqam ailə-maddi təminatın və fiziki təhlükəsizliyin təmin olunmadığı sosial mühitdə digərləri iləbirləşərək, böyük ailə (ailə icması, böyük ailə, patronimiya) şəklində öz varlıqlarını qoruyurlar.

3. Böyük ailələr, bir sistem kimi, öz maddi təminatını və fiziki təhlükəsizliyini təmin edə bilmədiyi təqdirdə, yenidən nuklear ailələrə bölünürlər. Bəzən, onlar öz ortaq təsərrüfat həyatınısaxlamaqla, patronimik birliklərini mühafizə edirlər.

4. Cinslərarasındabalanskəskinşəkildəpozulduqda {müharibə, xəstəlik və digər səbəblərlə), cəmiyyətdə ilkin monoqam (təkkəbinlilik)nikah forması poliqamiya(kişiçoxkəbinliliyi) vəpoliandriya (qadın çoxkəbinliliyi) kimi nikah formalarına keçir.

5. Özünəməxsusluğun (genetik, dini, mədəni) və mülkiyyətin itirilməsi qorxusu endoqamiyaya şərait yaradır.

6. Kənar təhlükələrdən qorunmaq və inteqrasiyaolunmaq zərurəti ekzoqamiyaya şərait yaradır.

XX əsrin 90-cı illərindən sonra qloballaşma proseslərinin təsiri ilə Azərbaycan ailə modelinin struktur və mahiyyətində bəzi dəyişikliklər baş verir. Biz, bu məsələləri mərhələli şəkildə tədqiq etməyi, məqsədəuyğun hesab edirik.

Azərbaycanda ailə qurumunun gender transformasiyası XX əsrdə dörd əsas mərhələdən keçmişdir:

1. 20-30-cu illərdə formasion keçidin ailə qurumuna təsiri;

2. İ.Stalinin hakimiyyəti dövründə SSRİ-də ailə siyasəti;

3. 50-80-ci illərdə SSRİ-də ailə siyasəti;

4. 90-cı illərdə formasion keçidin ailə qurumuna təsiri.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 20 iyun




## Oğuz rayonunda İmadəddin Nəsiminin anadan olmasının 650 illiyinə həsr olunmuş bədii qiraət müsabiqəsi keçirilib

Yeni Azərbaycan Partiyası Oğuz rayon təşkilatının və Oğuz Rayon Təhsil Şöbəsinin birgə tədbirlər planına uyğun olaraq, rayon təhsil şöbəsində dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilən bədii qiraət müsabiqəsinin II mərhələsi keçirilib. I mərhələdən uğurla keçən istedadlı 8 nəfər şagird müsabiqənin II mərhələsində iştirak edib. Təşkilat Komitəsinin qərarına əsasən, müsabiqədə iştirak edən 8 nəfər istedadlı gəncdən 3 nəfəri - Türkan Qocalı, İlahə Bəkirli və Şamil Abdullazadə müsabiqənin respublika mərhələsində iştirak etmək hüququ qazanıb.

Dahi Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyinə həsr olunmuş tədbirlər davam edir.

*ZÜMRÜD BAYRAMOVA*

## "Nar" Paralimpiya Oyunlarının iştirakçılarına dəstək olacaq

Gənclərə və idmana yönəlik korporativ sosial məsuliyyət (KSM) strategiyasını davam etdirən "Nar", "Ümid" İdman Klubuna dəstək olacaq. Mobil operator klub üzvlərinin Paralimpiya Oyunlarına lisenziya qazanması üçün Avropa və dünya yarışlarına hazırlaşmasına öz töhfəsini verəcək. Bundan başqa, "Nar" idmançıların 2020-ci ildə Yaponiyanın Tokio şəhərində keçiriləcək XVI Yay Paralimpiya Oyunlarında iştirakına da dəstək olacaq. Layihə çərçivəsində klub idmançılarına lazım olan təchizatı və digər xərcləri "Nar" təmin edəcək.

Qeyd edək ki, 2008-ci ildə yaradılan "Ümid" İdman Klubu atletika, üzgüçülük, cüdo və uşaq şahmatı idman növləri üzrə ixtisaslaşıb. Bu müddət ərzində "Ümid" İdman Klubunda ölkə, Avropa və dünya çempionları və Olimpiya Oyunlarının finalçıları yetişib. Eyni zamanda, klub idmançıları 2012-ci ildən paralimpiya atletika və üzgüçülük növlərində Avropa, Dünya Çempionatlarının və Paralimpiya oyunlarının qızıl, gümüş, bürünc medallarını qazanıblar.

"Nar" korporativ sosial məsuliyyət (KSM) strategiyasına uyğun olaraq gənclərə və idmana hər zaman dəstək olur. Əsas məqsəd peşəkar idmanla məşğul olan gənclərin və yeniyetmələrin, eyni zamanda fiziki məhdudiyyətli idmançıların dünya miqyasında Azərbaycanı təmsil etməsinə dəstək olmaqdır.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7500-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

### ELAN

**ADPU-nun Kimya-biologiya fakültəsinin V kurs tələbəsi Ağazadə Ağası Babək oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**ADPU-nun Kimya-biologiya müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Panalizadə Günel Əliheydər qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## "Bakı-2019" Avropa Gənclər Yay Olimpiya Festivalı diplomatik brifinqə ev sahibliyi edib

*"Bakı-2019" Avropa Gənclər Yay Olimpiya Festivalının Əməliyyat Komitəsi və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin birgə əməkdaşlığı ilə Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri üçün brifinq təşkil edilib.*

SİA-nın məlumatına görə, tədbirdə 36 ölkədən 40-a yaxın nümayəndə iştirak edib. Əməliyyat Komitəsinin nümayəndələri "Bakı-2019" Avropa Gənclər Yay Olimpiya Festivalının keçirilməsinə az bir zamanın qaldığı vaxtda ümumilikdə görülmüş işlər haqqında məlumat verib, protokol, təhlükəsizlik və akkreditasiya sahələrinə dair yeniliklər barədə diplomatik korpusun nümayəndələri qarşısında təqdimatlarla çıxış ediblər.




Gənclər və İdman naziri Azad Rəhimov çıxışında bildirib: "Biz sadəcə idmanımızın inkişafı ilə deyil, eyni zamanda, ölkəmizdə keçirilən mötəbər idman tədbirlərinin möhtəşəmliyi ilə də qürur duyuruq. Əbəs yerə Azərbaycan dünyada idman ölkəsi kimi tanınmır. Sayca 15-ci dəfə keçiriləcək Avropa Gənclər Olimpiya Festivalı gənc idmançıların dostluq və həmrəylik bayramıdır. Ümid edirik ki, qarşıdan gələn festivalın da yüksək səviyyədə təşkili idmançılarımız arasında dostluq münasibətlərini daha da möhkəmləndirəcək".

Xatırladaq ki, Avropa Gənclər Yay Olimpiya Festivalı iyulun 21-27-də Bakıda keçiriləcək. Yarışlarda iştirak etmək üçün Azərbaycana 3600-dən çox idmançı və texniki nümayəndə heyəti gələcək. Atletlər idmanın on növü - gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında qüvvələrini sınayacaqlar. Festival zamanı 12 idman obyektində 2500-dən çox könüllü fəaliyyət göstərəcək.

## Juan Feliş "Atletiko" nun tarixində ən bahalı oyunçu olacaq



"Benfika" futbol klubunun portuqaliyalı hücumçusu 19 yaşlı Juan Feliş "Atletiko de Madrid"in tarixində ən bahalı oyunçu olacaq. AZƏRTAC İspaniya KİV-lərinə istinadla xəbər verir ki, gərgin danışıqlardan sonra "Benfika" ən istedadlı avropalı futbolçulardan birini 120 milyon avro qarşılığında əldə edəcək. Saziş "Atletiko" ilə oyunçunu hər mövsümə görə 6 milyon avro müqabilində 2024-cü ilədək bağlayacaq. Qiymətinə, yaşına və trayektoriyasına görə Juan Felişin icarəsi riskli kapital baxımından çox güclü yatırımdır. Bunu Antuan Qrizmanın əvəz edilməsinə ehtiyacı olan "Atletiko" klubu özü də təsdiqləyib. Gənc futbolçunun hesabında 20 qol və 11 nəticəli ötürmə var.

## "Speranta" - "Neftçi" görüşünün keçiriləcəyi stadion müəyyənləşib

"Neftçi" futbol klubunun UEFA Avropa Liqasının 2019-2020-ci il mövsümünün ilk təsnifat mərhələsində səfərdə Moldovanın "Speranta" komandası ilə qarşılaşacağı arena müəyyənləşib. Qarşılaşma iyulun 11-də Kişineudakı "Zimbru" stadionunda təşkil olunacaq. Nisporeni klubunun rəhbərliyi görüş üçün əvvəlcə Orgeyevdəki idman kompleksinə sifariş versə də ev oyunlarını bu arenada keçirən "Petrokub" komandasının ilk görüşü səfərdə oynamasına dair UEFA-nın qərarından sonra "Speranta" Bakı təmsilçisi ilə paytaxt stadionunda qarşılaşmağa qərar verib. Bu komandalar arasında cavab görüşü iyulun 18-də "Bakcell Arena"da oynanılacaq.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600